# Xalq qəzeti

Xalqın qəzeti!

№ 175 (30579) 17 avqust 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Sənaye parkları şəbəkəsi iqtisadiyyatı modernləşdirir

**Azərbaycan iqtisadiyyatın bütün sahələrində, eləcə də sənayenin inkişafında böyük uğurlar əldə edir. Bu gün iqtisadi fəallığın artırılması, dayanıqlı inkişafın təmin olunması məqsədilə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal obyektlərinin, sənaye parklarının yaradılması da intensiv xarakter daşıyır.**

Qeyri-neft-qaz sektorunda nəzərə çarpan müsbət dinamika həm də ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların geniş cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və mövcud sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaqdır. Eyni zamanda, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlər də qarşıda mühüm vəzifələr kimi durur.

(ardı 7-ci səhifədə)





# Minsk qrupu – İrəvan üçün "saman çöpü"

## Haylar Bakının arxivə göndərdiyi bu təsisatla bağlı hələ də xəyallar qururlar

**Xeyli müddətdir ki, Azərbaycan sülh müqaviləsinin imzalanmasına mane olan səbəblərdən biri kimi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) yaratdığı Minsk qrupunun mövcudluğuna son qoymağı zəruri hesab edir. Rəsmi Bakı iki ay bundan əvvəl İrəvana Minsk qrupunun buraxılması tələbi ilə ATƏT-ə birgə müraciət etmək təklifini irəli sürüb.**



Bu təklif əvvəlcə Prezident İlham Əliyev tərəfindən Minsk qrupu həmsədrlərinin üzünə deyilib, dəfələrlə ictimaiyyətin qarşısında səsləndirilib. Sonuncu dəfə bu barədə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyov "Azadlıq" radiosunun Vaşinqton redaksiyasına müsahibəsində bildirib. O, müsahibəsində deyib ki, sülh müqaviləsini imzalamaqdan ötrü Ermənistan öz konstitusiyasına düzəlişlər etməli, ondan keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərinin əvvəllərində qəbul olunmuş qərara istinadı aradan qaldırmalı, eləcə də Azərbaycanla birlikdə Minsk qrupunun buraxılmasını ATƏT-dən tələb etməlidir.

***

İrəvan Bakının ATƏT-ə birgə müraciət təklifinə hələ də rəsmi münasibət bildirməyib. Belə görünür ki, o, müharibənin qızğın çağında – 1992-ci ildə beynəlxalq güclərin (ABŞ, Fransa və Rusiya) təkidi ilə yaradılmış Minsk qrupunun ləğvində maraqlı deyil. Bu, təbii olaraq, Azərbaycan rəhbərliyində İrəvanın hələ də Qarabağ məsələsinin gələcəkdə ATƏT səviyyəsində müzakirəsinə ümid etdiyinə əsaslı şübhələr yaradır. "Azadlıq" radiosunun erməni xidməti İrəvanın Bakının məlum çağırışına reaksiyasına aydınlıq gətirmək və onun MQ-nı ləğv etməkdə niyə maraqlı olmadığını öyrənmək üçün Ermənistan Xarici İşlər Nazirliyinə müraciət edib. XİN-in radioya rəsmi açıqlaması belə olub: "Ermənistan tərəfi Minsk qrupu çərçivəsində prosesinin davam etdirilməsi məsələsini münasibətlərin hərtərəfli tənzimlənməsi və hər şeydən, əvvəl sülh müqaviləsinin bağlanması kontekstində nəzərdən keçirə bilər".

(ardı 4-cü səhifədə)

# Nankorluq, haqq və daha böyük haqq



Səhifə ⇨ 4

# ABŞ erməniləri Trampa qarşı

## Səbəb Azərbaycandır



**Amerika Erməni Milli Komitəsi (ANCA) ABŞ prezidentliyinə namizəd Donald Trampa qarşı hücuma keçib. Qurumun yaydığı geniş bəyanatı yalnız belə qiymətləndirmək mümkündür. Sənəddə bir sıra məqamlara toxunulub ki, yazımızda onlardan söz açacağıq.**

Ancaq əvvəlcə onu bildirək ki, ANCA belə bir bəyanat yaymaqla, Birləşmiş Ştatların seçki mühitinə təsir etməyə çalışır. Digər tərəfdən, sənəd onu göstərir ki, Amerika erməniləri Trampın prezidentliyindən qəti şəkildə çəkinirlər və onunla bağlı hansısa ümidləri yoxdur. Ona görə də necə deyərlər, bütün körpüləri yandırmaq qərarına gəliblər.

Beləliklə, ANCA-nın bəyanatında bildirilib ki, Tramp administrasiyası Azərbaycanın 2020-ci ildə Qarabağın yerli ermənilərinə hücumunu təşviq edib, "erməni soyqırımı"nı tanımaqdan uzaq durub, Azərbaycanın məsuliyyətə cəlb olunması üçün, ümumən 44 günlük müharibə zamanı törədilmiş hərbi cinayətlərə görə əməli addımlar atmayıb.

(ardı 4-cü səhifədə)

# Bakıda COP29 hazırlıqları



Səhifə ⇨ 8

# Minskdə "Göz yaşları" adası



Səhifə ⇨ 12

# Azərbaycan turizmi: qapımız qonaqlara daha geniş açılmalıdır



Səhifə ⇨ 10

# Özbəkistan mətbuatı Mehriban Əliyevaya məqalə həsr edib




**Azərbaycanın Özbəkistandakı səfirliyinin təşəbbüsü ilə Özbəkistan mətbuatında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya həsr edilmiş məqalə yayımlanıb.**

Mədəniyyət Mərkəzindən bildirilib ki, müəllifi Azərbaycanın Xalq yazıçısı, tanınmış jurnalist Elmira Axundova olan məqalə özbək və rus dillərində ölkənin aparıcı "UzA" Milli İnformasiya Agentliyində, "aniq.uz", "uzdiplomat.uz", www.kultura.uz portallarında dərc edilib.

"Uki, kimgadir ortig'i bilan berilgay..." ("Та, кому многое дано...") adlı məqalədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında ən səmimi fikirlər, ülvi hisslər yer alıb. Yazıda birinci xanım Mehriban Əliyevanın ölkəmizin sosial, mədəni, ictimai, siyasi həyatında oynadığı aparıcı roldan söz açılır. Bildirilir ki, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda hər il onlarla uşaq bağçası, körpələr evi, internat məktəbi, xəstəxana və s. bərpa olunaraq istifadəyə verilir. Bundan əlavə, Azərbaycanda uşaq evlərinin və sığınacaqların institusionallaşdırılması, valideyn himayəsindən məhrum olmuş uşaqların tamhüquqlu ailələrə verilməsi hərəkatı başlayıb. Birinci xanım əhalinin ən həssas təbəqələrinə, ilk növbədə, xəstə uşaqlara, eləcə də sosial müdafiədən, valideyn himayəsindən və qayğısından məhrum olan balaca uşaqlara kömək etməyi özünün vətəndaşlıq borcu hesab edir.

Məqalədə o da vurğulanıb ki, Heydər Əliyev Fondunun xeyriyyə təşəbbüslərinin əks-sədası Azərbaycanın hüdudlarından çox-çox uzaqlara da yayılır. Fondun müxtəlif ölkələrdə gördüyü xeyirxah işlər həmin ölkələrin tarixinə, vətəndaşlarının qəlbinə əbədi olaraq yazılacaq.

Yazıda, həmçinin ölkəmizin mədəni-ictimai, idman həyatında Mehriban xanım Əliyevanın xidmətlərindən də söz açılır. Qeyd edilir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə regional deyil, həm də qlobal miqyas alıb. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafındakı xidmətlərindən söz açılarkən qeyd olunub ki, Avropada idmanın inkişafında xüsusi xidmətlərindəki yüksək nailiyyətlərinə görə ona Avropa Olimpiya Komitələrinin ali mükafatı – Ali orden təqdim edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyət, xalqımızın mədəni irsinin beynəlxalq səviyyədə geniş təbliği və Birinci Avropa Oyunlarının təşkilindəki xidmətlərinə, yarışlarda əldə edilmiş böyük nailiyyətlərə görə isə Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Eyni zamanda, bildirilib ki, Azərbaycan xalqının, dövlətinin, dövlətimizin başçısının ən çətin, gərgin günlərində Mehriban xanım hər zaman xalqla həmrəylik nümayiş etdirib, Prezident İlham Əliyevin ən böyük mənəvi, siyasi dəstəkçisi olub.

İşğaldan azad olunun torpaqlarımızda aparılan quruculuq işlərində də Mehriban xanımın böyük xidmətlərinin olduğu vurğulanan məqalədə diqqətə çatdırılıb ki, Qələbədən qısa müddət sonra həmin ərazilərdə Böyük Qayıdış və genişmiqyaslı bərpa-quruculuq işləri başlayıb. Bu prosesə rəhbərliyi Prezident İlham Əliyevlə birlikdə birinci xanım Mehriban Əliyeva da edir. Qarabağın bərpa edilmiş hər bir abidəsində, hər bir məscid və ya muzey kompleksində birinci xanıma xas olan incə zövq və heyrətamiz zəriflik hissi sezilir.

**XQ**

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin 6-cı iclası

**Avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 6-cı iclası keçirilib.**




Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini bildirib.

Təşkilat Komitəsinin sədri Prezident İlham Əliyevin iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda COP29-la bağlı vacib tezislər səsləndirdiyini, dövlətimizin başçısının yanaşmasının inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulmasından ibarət olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri



Prezident İlham Əliyevin COP29 gündəliyimizi proqnozlaşdırılabilən, aydın məqsədlərə və nəticələrə köklənmiş gündəlik kimi xarakterizə etməsinə diqqət çəkərək dövlət qurumlarının, COP29 heyətinin bundan sonra da var gücü ilə çalışmasının vacibliyini vurğulayıb.

Samir Nuriyev noyabrın 12-13-də keçiriləcək Liderlər Sammitinə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflərinə dəvətlər ilə bağlı tam inklüzivliyin təmin edildiyini bildirib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə mövcud fikir ayrılıqlarının aradan qaldırılması üçün səmimi səylər göstərdiyini və bu xüsusda, iyulun 26-27-də müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində Şamaxıda qeyri-rəsmi məsləhətləşmələr kimi innovativ format təşkil etdiyini diqqətə çatdırıb.

Samir Nuriyev bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni tam razılaşdırılıb.

Təşkilat Komitəsinin sədri Azərbaycanın COP29 təşəbbüslərinin geniş ictimaiyyətə açıqlandığını, COP atəşkəsi və İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüslərinin beynəlxalq müstəvidə daha çox diqqət çəkdiyini bildirib.

Samir Nuriyev Azərbaycan tərəfindən inkişaf etməkdə kiçik ada ölkələri üçün Texniki Yardım Fondunun yaradılmasına, "Azərkosmos" tərəfindən kiçik ada ölkələrində iqlim dəyişmələri üzrə layihələrin həyata keçirilməsinə dair anlaşma memorandumlarının avqust ayının sonlarında Millətlər Birliyi (Commonwealth) təşkilatı ilə imzalanacağı barədə məlumat verib.

COP29 Beynəlxalq Məşvərət Komitəsinin və COP 29 Elm Şurasının iclaslarına toxunan Samir Nuriyev hər iki təsisatın imkanlarından maksimum dərəcədə faydalanmağın vacibliyini qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev COP29-la bağlı ümumi gedişat, müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində iyulun sonlarında Şamaxıda keçirilmiş qeyri-rəsmi məsləhətləşmələr, COP29 komandasının nəzərdə tutulan xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədov COP29 çərçivəsində Liderlər Sammitinə hazırlıq barədə çıxış edib.

Daxili işlər naziri Vilayət Eyvazov COP29 zamanı ictimai təhlükəsizliyin təmin edilməsi tədbirləri barədə danışıb və bütün zəruri tədbirlərin həyata keçirildiyini deyib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29 zamanı nəqliyyatın təşkili, o cümlədən hava limanlarının qəbul imkanları barədə çıxış edib.

Sonra COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin COP29-un iqlim üzrə yüksək səviyyəli çempionunun fəaliyyəti barədə çıxışı dinlənilib.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev COP29-la əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti barədə məlumat verib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri, Bakı Olimpiya Stadionunda aparılan işlər, "Mavi" və "Yaşıl" zonalar və orada tədbirlərin, pavilyonların təşkili barədə danışıb.

Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" ictimai birliyinin sədri Məryəm Məcidova qeyri-hökumət təşkilatlarının COP29-la bağlı fəaliyyəti barədə məlumat verib.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

**XQ**

# Mövqelərimiz yenə atəşə tutuldu

**Avqustun 16-sı saat 03:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Xatırladaq ki, ötən gün də Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə tutulmuşdu.

**XQ**

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Avqustun 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə komissiyanın avqustun 10-da və 12-də keçirilən iclaslarının protokolları təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "exit-poll" keçirmək niyyəti ilə daha bir qurumun – "Sosioloji Tədqiqatlar Mərkəzi"nin qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada Mərkəzi Seçki Komissiyasına ünvanlanan müraciətinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən qurumun müraciəti təmin olunub və Milli Məclisə seçkilərdə "exit-poll" keçirmək üçün qeydə alınıb.

Daha sonra iclasda 36 saylı Xətai–Suraxanı seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilib.

Beynəlxalq müşahidə missiyası təmsilçiləri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi, habelə media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə keçirilən iclasda, həmçinin Milli Məclisə seçkilərə hazırlıqların gedişi, intensiv şəkildə davam edən irimiqyaslı layihələr barədə ətraflı məlumat verilib və cari məsələlərə baxılıb.

**XQ**

# Azərbaycan təmsilçiləri IX Xəzər Media Forumunda



**Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən IX Xəzər Media Forumunda iştirak edir.**

Səfər çərçivəsində nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda Ulu öndərin abidəsini, həmçinin Qardaşlıq bağında "Əbədi şöhrət məşəli" abidəsini ziyarət ediblər.

"Mədəniyyətlərin dialoqu Xəzər regionunun inkişafının əsası kimi" mövzusunda baş tutan tədbirin əsas məqsədi Xəzəryanı ölkələr arasında vahid media mühiti yaratmaq, informasiyanın saxtalaşdırılmasının aradan qaldırılmasına kömək etmək və konstruktiv dialoq platformasını inkişaf etdirərək regionda mövcud olan müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlığı təşviq etməkdir.

IX Xəzər Media Forumu çərçivəsində keçirilən nümayəndə heyətləri rəhbərlərinin görüşündə Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli xalqlar arasında mədəni körpülərin yaradılmasında və media sahəsində gələcək əməkdaşlıq perspektivlərinin müzakirə edilməsində bu kimi platformaların vacib rol oynadığını vurğulayıb.

Qeyd edək ki, IX Xəzər Media Forumu öz işini bu gün plenar iclaslarla davam etdirəcək.

**XQ**

# Şahin Bağırov Lənkəranda

**Dünən Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Lənkəran şəhər Mədəniyyət Mərkəzində Lənkəran, Astara, Lerik, Masallı və Yardımlı rayonlarından olan vətəndaşlarla görüşüb.**



Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir müraciət diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

**XQ**

# İrəvan təxribatlarından qalmır

**1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Cənubi Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olmasına imkan verməyən, təhlükəsizliyin təmin edilməsinə hər vəchlə mane olan Ermənistan köhnə vərdişlərindən əl çəkmir. Rəsmi İrəvan vaxtaşırı olaraq şərti sərhəddə atəşkəsin pozulması hallarına yol verir. Görünən odur ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğraması və 2023-cü ildəki lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağın dağlıq hissəsindəki Ermənistan ordusunun qalıqlarının darmadağın edilməsi də qarşı tərəfə dərs olmayıb.**



Heç kəsə sirr deyil ki, Ermənistan bu təxribatçı əməlləri xarici havadarlarının təhriki və hərbi-siyasi dəstəyi ilə həyata keçirir. Onların arasında Fransa başda olmaqla bir sıra Qərb ölkələrini göstərmək olar. Bu dövlətlər Ermənistanı silahlandırır, ölkənin rəhbərliyində isə bunun əsasında revanşist fikirlər baş qaldırır. Ancaq onlar unudurlar ki, Azərbaycanda da ordu quruculuğuna böyük diqqət ayrılır. Ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam təmin olunması bizdə arxayınlıq hissi yaratmayıb. Bundan əlavə, rəsmi Bakı siyasi-diplomatik müstəvidə də aktiv fəaliyyətini davam etdirir.

Diqqət çəkən həm də Ermənistanın atəşkəsin pozulması hallarına yol verməklə yanaşı, sülh danışıqları aparmasıdır. Bu isə İrəvanın sülh istəyində səmimi olmadığının, riyakar mövqeyinin daha bir təsdiqidir. Sülh danışıqları aparmaqla atəşkəsin pozulması bir-biri ilə tərs mütənasibdir.

Demək olar ki, Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti vaxtaşırı olaraq, qarşı tərəfin atəşkəsi pozmasına dair məlumat yayır. Növbəti belə məlumat avqustun 15-də axşam və ayın 16-da səhər saatlarında yayılıb. Qeyd edilib ki, avqustun 15-i saat 18:10 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Avqustun 16-sı saat 03:20 radələrində isə Hayastanın qoşun bölmələri ordumuzun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Hər iki halda bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Baş vermiş insidenti araşdırmaq, təqsirkarları üzə çıxarmaq əvəzinə Ermənistan tərəfi xislətinə sadiq qalaraq, bu dəfə də inkar yolu tutdu. Hayastan müdafiə nazirliyinin yaydığı məlumatda deyilir: "Avqustun 16-da saat 03:20 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin sərhəd zonasının qərb hissəsində yerləşən Azərbaycan mövqelərini atəşə tutması barədə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumat həqiqətə uyğun deyil".

Bunun ardınca, ənənəvi tezis yenidən təkrarlanıb: "Xatırlatmaq istərdik ki, Ermənistan Respublikasının baş nazirinin ofisi diplomatik kanallar vasitəsilə Azərbaycan tərəfinə atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün ikitərəfli mexanizm yaratmağı təklif edib".

Göründüyü kimi, rəsmi İrəvan atəşkəs pozuntusundakı təqsirini etiraf etmir, təqsirkarları cəzalandırmaq istəmir. Bu isə hadisənin məqsədli şəkildə törədildiyini və oxşar halların qarşıdakı dövrdə də təkrarlanacağı anlamına gəlir.

Məsələ ilə əlaqədar "XQ"yə açıqlama verən **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirdi ki,



Ermənistan–Azərbaycan şərti sərhədində atəşkəsin pozulması və təxribatların baş verməsi artıq adi hala çevrilib: "Mən və digər hərbi ekspertlər atəşkəsin pozulacağı və təxribatların olacağı ilə bağlı öz fikirlərimizi ifadə etmişdik. Bunun üçün əsaslar var. Çünki rəsmi İrəvanın son vaxtlar tutduğu siyasi kurs regiona yeni oyunçuların cəlb olunmasına xidmət edir. Ermənistan Qərb ölkələrinin regionda maraqlarının təmin olunması üçün, necə deyərlər, əldən-ayaqdan gedir. Halbuki, regionda bütün məsələlər "3+3" formatında həllini tapa bilər. Fransa və ABŞ-nin bölgədə aktivləşməsi isə Ermənistanın yeni havadarlar axtarışına çıxmasının nəticəsidir. Belə davam edərsə, Cənubi Qafqazda çox təhlükəli proseslərin baş verəcəyini proqnozlaşdırmaq olar. Bu gün Suriya və Ukraynada cərəyan edən hadisələrin sabah Ermənistanda yaşanması istisna deyil. Regionun təhlükəsizliyinə xəyanət edən İrəvanın mövqeyi bölgədə təhlükəli proseslərin baş verməsinə şərait yaradır".

Hərbi ekspert qarşı tərəfin son vaxtlar silahlanmasının təsadüfi olmadığını vurğuladı. Onun sözlərinə görə, Ermənistan büdcəsinin 4,2 faizi hərbi xərclər üçün ayrılır. Bu isə onu göstərir ki, İrəvan sürətlə silahlanır: "Hindistanda istehsal olunan 500 milyon dollar dəyərində silah-sursat və hərbi texnikanın alınması, Fransanın "Sezar" özüyeriyən haubitsalarının Ermənistana gətirilməsi ilə bağlı sazişlər var. Bunlar üzdə olan müqavilələrdir. Düşünürəm ki, müəyyən zamandan sonra hansısa gizli sazişlərlə bağlı məlumatlar da açıqlanacaq. Bugünkü məlumatlara əsaslanaraq deməliyik ki, hazırda Ermənistanın 1 milyard dollara yaxın silah-sursat alması ilə bağlı müqavilələr imzalanıb".

Bəs iqtisadi durumu çətin olan, heç bir təbii sərvətlərə malik olmayan Ermənistan silahlanma üçün bu qədər vəsaiti haradan tapır? Bu sualımızı da cavablandıran Ş.Ramaldanov qeyd etdi ki, xarici havadarları Ermənistanı müəyyən fondlar, o cümlədən Avropa Sülh Fondu vasitəsilə maddi baxımdan dəstəkləyirlər. Belə olan təqdirdə İrəvanın sabah onu silahlandıran havadarlarının sifarişlərini yerinə yetirəcəyi istisna edilmir. Ermənistanı silahlandıranlar dost olmayan ölkələrdir. Məsələn, ABŞ və Fransa Rusiya və İran üçün dost ölkə sayılmır. Türkiyə Azərbaycanın ən yaxın müttəfiqi olmaqla regionda sülhün tərəfdarıdır. Azərbaycan da öz mövqeyini dəfələrlə bildirib. Gürcüstanda gedən proseslər Tbilisinin mövqeyini aydın şəkildə əks etdirir. Təkcə Ermənistan qalır ki, bu ölkə regionun təhlükəsizliyinə xəyanət edərək burada yeni münaqişələrin olmasına, böyük güc mərkəzlərinin toqquşmasına şərait yaratmaq istiqamətində siyasət yürüdür.

Ş.Ramaldanov bildirdi ki, bütün bunlar qlobal proseslərdir və ölkəmiz burada birbaşa hədəf deyil. Ancaq məsələ ondadır ki, Fransa və ABŞ bölgədə öz maraqlarını təhlükəsizlik bəhanəsi adı altında genişləndirmək yolunu tutublar: "İrəvan bu gün təhlükəsizlik zəmanəti adı altında Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına açıq-aydın etimadsızlıq göstərirsə, deməli, onların Ermənistan–Azərbaycan şərti sərhədində hansısa irimiqyaslı təxribata əl atacaqları istisna olunmur. Təbii ki, Müdafiə Nazirliyinin bununla bağlı xəbərdarlığı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi ismarıcdan irəli gəlir. Cənab Prezident bildirmişdi ki, istər revanşistlər, istər Ermənistanın rəhbərliyi, istərsə də havadarları tərəfindən atılacaq addımlar ölkəmizə təhlükə yaradarsa, biz dərhal cavab tədbirləri görəcəyik. Təbii ki, ölkəmiz üçün təhlükə Ermənistanın silahlandırılmasıdır".

Ehtiyatda olan polkovnik, həmçinin bildirdi ki, Ermənistan hələ də ölkəmizlə müharibə vəziyyətindədir. Belə olduğu təqdirdə qarşı tərəfin silahlandırılması diqqətimizdən yayına bilməz. Bu gün Ermənistanın mövqeyi revanşist, sülhdənqaçma mövqeyidir. Bütün bunlar hansısa məqsədlər naminə edilir.

Ş.Ramaldanov təxribatların sayının artacağını da istisna etmir. Çünki bu, İrəvanın havadarları üçün əlverişli şəraitin yaranması deməkdir. Azərbaycan Ermənistanın təxribatlarına cavab addımları atacaq. Bu addımlar bəlkə də cavab yox, daha böyük təxribatların qarşısını almaq üçün hansısa tədbirlərin görülməsi olacaq. Belə olan təqdirdə, Ermənistanın təhlükəsizliyini təmin etmək adı altında regionda arzuolunmaz ölkələr burada öz maraqlarını genişləndirməyə çalışacaqlar. Onun sözlərinə görə, Ermənistanın təxribatlar törətməsi havadarlarının ona hazırladığı ssenarilər əsasında baş tutur. Bu kimi halların qarşıdakı dövrdə də baş verməsi mümkündür.

Müsahibimiz qarşı tərəfin sonuncu atəşkəs pozuntusu ilə bağlı inkarçı mövqe tutmasının onlara xas yanaşma olduğunu da vurğuladı.

*Səxavət HƏMİD*
*XQ*

# Naxçıvan MR Ali Məclisi büdcəyə əlavələri təsdiq edib

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasında "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik barədə layihə birinci oxunuşda söylənən düzəlişlər müzakirə edildikdən sonra qəbul edilib.**

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik barədə layihəsi də müzakirə zamanı səslənən təklif və qeydlər nəzərə alınmaqla təsdiq edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov iclas iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

**XQ**

# Ermənistanın ekoloji cinayətləri mövzusunda konfrans

**Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD lahiyəsi çərçivəsində "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Baş prokuror Kamran Əliyev bildirib ki, Xankəndidən sonra növbəti konfransın Naxçıvanda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. BMT-nin COP29 kimi mötəbər toplantısının bu il Azərbaycanda keçirilməsi isə ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq. Ermənistanın işğalçı siyasətinin acı nəticələrindən biri su ehtiyatlarımızın yararsız vəziyyətə gətirilməsidir. Təcavüzkar ölkə "BMT-nin Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında konvensiyasından, "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" konvensiya və onun "Su və sağlamlıq haqqında" protokollarından irəli gələn öhdəlikləri kobud şəkildə pozmuşdur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli isə qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 11-ci prioriteti də "Ətraf mühitin mühafizəsinin gücləndirilməsi" ilə bağlıdır. Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, Baş Prokurorluğun idarə rəisi Elnur Musayev, muxtar respublikanın prokuroru Sənan Paşayev, Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin rəisi Zakir Quliyev, Elm və Təhsil Nazirliyi aparatının rəhbəri Mətin Kərimli, muxtar respublikanın ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Baş Prokurorluğun idarə prokuroru Elşad Ağayev mövzu ətrafında işgüzar müzakirə aparıblar.

Sonda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlıq barədə anlaşma memorandumuna uyğun olaraq ECOLEAD layihəsinə Naxçıvan Dövlət Universitetinin tərəfdaş qismində qoşulmasına dair sənəd imzalanıb.

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin Naxçıvan müxbiri**

# Baş prokuror vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.**

Görüşdə iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*XQ*

# Laçında Minadan və hərbi sursatdan təmizləmə üzrə İşçi qrupun iclası

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun növbəti səyyar iclası Laçın rayonunda keçirilib.**



Səfərdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) və işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda açılış nitqi ilə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri, işçi qrupun rəhbəri Vüqar Süleymanov işğaldan azad edilmiş ərazilərin inkişaf planına uyğun olaraq həmin ərazilərdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi və cəlb olunmuş digər qurumlar, eləcə də yerli şirkətlər tərəfindən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyətinin icra olunduğunu qeyd edib. Bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda minatəmizləmə layihələri əsasən yaşayış infrastrukturunun yaradılması, nəqliyyat, energetika, kənd təsərrüfatı sahələri, sənaye parkları və digər prioritet istiqamətlərdə aparılır. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə 2020-ci ilin 10 noyabr tarixindən bugünədək ümumilikdə 155 min 447 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. İşğaldan azad edilmiş ərazilərə geri qayıdan əhali, habelə bu ərazilərdə çalışan insanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə ANAMA tərəfindən mütəmadi olaraq keçirilən maarifləndirmə təlimlərinin vacibliyini vurğulayan Vüqar Süleymanov Laçın şəhərinin, Sus və Zabux kəndlərinin əhalisinə də bu istiqamətdə təlimlərin keçirildiyini qeyd edib.

Sonra işçi qrupun digər üzvləri tərəfindən təmsil etdikləri qurumların bu sahədə gördüyü işlər barədə məlumat verilib və təqdim olunan hesabatlar müzakirə edilib. Səfər çərçivəsində işçi qrup üzvləri Cəbrayıl rayonu ərazisində ANAMA tərəfindən Cocuq Mərcanlı kəndində, eləcə də yerli şirkət tərəfindən Sarıcallı kəndində həyata keçirilən minalardan təmizlənmə əməliyyatları ilə tanış olublar, aşkar edilən mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

*XQ*

# ABŞ erməniləri Trampa qarşı

(əvvəli 1-ci səhifədə)

Bundan başqa, Tramp və komandası Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin səlahiyyət müddətini dörd illiyinə ləğv edərək, ABŞ-nin Azərbaycana yardımına qoyulan məhdudiyyətləri aradan qaldırıb. Habelə, Trampın prezidentliyi dönəmində Birləşmiş Ştatların Ermənistana və Azərbaycana hərbi yardımında müəyyən edilmiş paritet presedenti pozulub və Vaşinqton Bakıya hərbi yardımı kəskin şəkildə artırıb ki, 120 milyon dollardan çox olan vəsait, sən demə, Azərbaycanı 2020-ci ilin müharibəsinə həvəsləndiribmiş.

Göründüyü kimi, ANCA D.Trampı ABŞ ermənilərinin gözündən salmaq, onun seçilməsinə maneçilik törətmək üçün ən sərsəm üsullara əl atmaqdadır. Qurumun bəyanatında vurğulananlar da fikrimizin təsdiqidir. Nəzərə alaq ki, sənəddə bilavasitə 44 günlük müharibə dönəminə də fokuslanma var. Orada bildirilib ki, Tramp administrasiyası savaş zamanı yaşanmış hərbi cinayətlərə, o cümlədən mülki şəxslərin edamına, onlara qarşı qadağan olunmuş silahların elementar sual yaranır: necə olur ki, regionun 70 faizində 50 min, yerdə qalan 30 faizində 100 min erməni yaşayıb?

Əlqərəz, ANCA bildirir ki, Tramp administrasiyasının heç bir tədbir görməməsi səbəbindən, Azərbaycan 2021-ci ilin mayında və 2022-ci ilin sentyabrında Ermənistana hərbi müdaxiləsini daha da gücləndirdi, yekunda isə 2023-cü ilin sentyabrında Qarabağın blokadası və bölgənin etnik təmizlənməsi yaşandı. Göründüyü kimi, təşkilat nəyə etnik təmizləmə deməyi də düz əməlli müəyyənləşdirə bilmir. Bu da onun yaydığı sənədin məntiqsizliyini təsdiqləyən növbəti məqamdır. Üstəlik, Ermənistana təcavüzdən söz açmaqla Qarabağın blokadasını eyni müstəviyə gətirmək də ortaya absurd mənzərə çıxarır. Məlumdur ki, Azərbaycan tərəfindən nə Ermənistana təcavüz olub, nə də Qarabağ blokadada saxlanılıb.

Qeyd edək ki, ANCA-nın bəyanatında Türkiyədən də söz açılıb və bildirilib ki, Tramp administrasiyası Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qucaq açdı və guya, bu, "regionda sabitliyi pozan hərəkətləri fonunda etibarsız NATO



tətbiqinə, ermənilərin özbaşına saxlanmalarına və işgəncələrə məruz qalmalarına göz yumdu, "Azərbaycanın əsassız təcavüzünü dayandırmaq istiqamətində heç bir mənalı addım atmadı", müharibə əsirlərinə və Qarabağın qədim xristian irsinin dağıdılmasına laqeyd yanaşdı.

Bəyanatın sərsəmliyini sübuta yetirən məqamlardan biri də diqqətə çatdırdığımız sonuncu cümlədir. Məsələ ondadır ki, Ermənistan üçün Qarabağın mədəni irsinin dağıdılması ritorikası 2023-cü ilin lokal xarakterli antiterror tərdbirlərindən, yəni ölkəmizin özünün bütün ərazilərində suverenliyini bərpa eməsindən sonranın siyasi məhsuludur. ANCA isə nədənsə məsələni Tramp administrasiyası ilə əlaqələndirir. Halbuki, həmin vaxt Tramp hakimiyyətdə deyildi. Digər tərəfdən, ANCA elə təəssü- müttəfiqinə kart-blanş verdi". Ardınca isə sənəddə Ankaranın 2020-ci il müharibəsinə dəstək verdiyi, NATO-ya məxsus "F-16" qırıcılarını Azərbaycanda yerləşdirdiyi vurğulanıb.

Sən demə, Türkiyə "Ermənistanın mülki əhalisinə və infrastrukturuna hücum etmək üçün" Azərbaycana verdiyi pilotsuz uçuş aparatlarda ABŞ-nin ikili təyinatlı texnologiyasını yerləşdirməklə, Birləşmiş Ştatların silah ixracına dair qanununu pozubmuş və Tramp administrasiyası həm buna, həm də Türkiyənin, guya, münaqişə bögəsinə muzdlular göndərməsinə göz yumubmuş.

"Tramp administrasiyasının Azərbaycanın 2020-ci ildə Qarabağa qarşı soyqırımı hücumuna kömək etmək qərarı və onun Azərbaycanın hərbi cinayətləri qar-



rat yaradır ki, sanki Azərbaycan öz torpaqlarını işğaldan qurtarmamalı imiş və mövcud istiqamətdəki fəaliyyət işğalçılıqdır. Bu kimi fikirlərin bir adı var – həyasızlıq.

ANCA-nın bəyanatında o da bildirilib ki, "Azərbaycanın 2020-ci il hücumundan sonra" 50 mindən çox dinc erməni məcburi köçkünə çevrildi. Nəticədə regionun 70 faizi etnik təmizləməyə məruz qaldı. Burada da təzad var. 50 minlik sayın regionun 70 faizində etnik təmizləmənin həyata keçirilməsi üçün əsas götürülməsi absurddur. Görəsən, söhbət hansı regiondan gedir. Trampın dövründə Azərbaycan özünün ərazi bütövlüyünü tam bərpa etməmişdi. Yəni, Qarabağa sahiblənməmişdi. Belə çıxır ki, ANCA-nın başbilənləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda yaşayan erməniləri nəzərdə tuturlar. Hələ həmin ərazilərin vilayətə daxil olmadığını və onsuz da oradakı ermənilərin çıxmalı olduqlarını, işğal faktının interpretasiyasını bir kənara qoyuruq. Görəsən, Ermənistan rəhbərliyi 150 minlik sayı nə zamansa gündəmə gətiribmi? Yox! Yəni ki, rəsmi İrəvan və onun xaricdəki havadarları Qarabağı tərk edən 100 min ermənidən söz açırdılar və etnik təmizləmə cəfəngiyyatı məhz onlara nəzərən ortaya atılırdı. Belədə şısında hərəkətsizliyi bu ilin noyabrında amerikalı erməni seçicilərə ağır yük yaradacaq" kimi fikirlərin yer aldığı bəyanatın siyasi şantaj məqsədi daşıdığı ortadadır. Heç şübhəsiz, belə şantajlar ABŞ-nin siyasi həyatına əhəmiyyətli təsir göstərə bilməz. Eyni zamanda, ANCA-nın bəyanatının namizəd D.Trampın mövqeyinə əsaslı təsirindən də söz açmağa dəyməz. Necə deyərlər, milçək bir şey deyil, könül bulandırır.

Amma ANCA-nın bəyanatının ardınca ABŞ-dəki ermənipərəst Konqres və senatorların "hərəkətə keçmələri" proqnozlaşdırılandır. Çox güman, onlar Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarına yalmanmaq üçün çeşidli məsələləri gündəmə gətirəcək, anti-Azərbaycan ritorikasını gücləndirəcək, ölkəmizə qarşı hədyanları sıralayacaqlar. Bu isə heç narahatlıq doğurmur. Çünki belə hədyanlara öyrəşikliyik. Həm də ona görə ki, itin hürməsi karvanın keçməsinə maneəçilik törətmir. 2020-ci ildən sonra Cənubi Qafqazda yaşananlar da bu deyimin təsdiqidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Nankorluq, haqq və daha böyük haqq

## Rusiya XİN-in erməni dərslikləri ilə bağlı narahatlığı

**Məlum olduğu kimi, bir neçə gün əvvəl Rusiyanın Xarici İşlər Nazirliyi Ermənistanda yeni tarix dərsliklərində Rusiyanın rolunun təhrif edilməsinə diqqət yetirib, erməni iqtidarını buna "göz yummamağa" və məktəblərdə belə dərsliyin olmasına icazə verməməyə çağırıb.**



Rusiya XİN Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə tabe strukturun rəsmi saytında mətni dərc olunmuş "erməni məktəblərinin 8-ci sinifləri üçün Tarix dərsliyinin son dərəcə şübhəli məzmununa" diqqət çəkib. Qeyd edək ki, yeni dərsliyin fəsillərindən birində "Şərqi Ermənistanın zorla Rusiyaya birləşdirilməsi" fikri yer alıb.

Rəsmi Moskva bunu təxribat xarakterli təqdimat kimi qiymətləndirib. XİN bildirib ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən hadisələr təhrif olunmuş formada göstərilib. Xüsusilə, 1826-1828-ci illər Rusiya–İran müharibəsinin nəticələri şübhə altına alınıb. "Belə təqdimat istənilən tarixçini çaşdıra bilər. Əgər siz ciddi mənbələri, o cümlədən erməni mənbələrini oxusanız, 1828-ci il sülh müqaviləsinə tamamilə fərqli yanaşmalar görə bilərsiniz", – deyə Rusiya XİN Ermənistan hakimiyyətinin bu cür dərsliklərin məktəblərdə yayılmasına icazə verməməyə və gələcəkdə ümumi keçmişi təhrif etmək cəhdlərinə göz yummamağa çağırıb.

Dünən Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyindən bildirilib ki, 8-ci sinif üçün yeni "Erməni tarixi" dərsliyində Şərqi Ermənistanın 1828-ci ildə Rusiya imperiyasına birləşdirilməsini "ilhaq" kimi əks etdirən bölmə tezliklə dəyişdiriləcək. Bunun nə demək olduğu qeyri-müəyyəndir. Yəni Rusiya XİN-in narazılığı nəzərə alınacaq, ya yox? Məlum deyil. Ancaq məsələnin gündəmə gəlməsi maraqlıdır. "Şərqi Ermənistan" nə deməkdir? Axı bu ifadənin özü də tarixin təhrifidir.

Heç şübhəsiz, qeyd edilən məsələ Ermənistan hakimiyyətinin Rusiya ilə bağlı hər şeyi silmək əzminin növbəti təzahürüdür. Rəsmi İrəvan hər vasitə ilə anti-Rusiya ritorikasını genişləndirir. Görünür, indi növbə tarixin təhrifinə çatıb. Moskvanın isə mövcud xüsusdakı narahatlığı tam anlaşılandır. Məlumdur ki, 1826-1828-ci illərin Rusiya–İran müharibəsindən sonra Azərbaycan torpaqlarının ikiyə bölünməsi rəsmiləşdi. Yəni, işğala məruz qalan Azərbaycan oldu. Bu, Türkmənçay müqaviləsinin şərtlərində əksini tapdı.

1828-ci ildə Cənubi Qafqazda "erməni vilayəti" yaradıldı ki, sonradan, yəni 1830-cu ildən başlayaraq, həmin vilayətə ermənilərin kütləvi köçü reallaşdı. Müsəlmanlar arasına xristian "erməni pazı"nın yeridilməsi ilə türk dünyasının parçalanmasının əsası qoyuldu. Həm parçalanmanın, həm də gələcək bəlaların. Bunu edən çar Rusiyası idi.

Uzun sözün qısası, indi rəsmi Moskvaya yer edən çar Rusiyası tərəfindən yaradılmış "erməni vilayəti"nin Ermənistan kimi qiymətləndirilməsi və həmin vilayətin, guya, Rusiya tərəfindən işğal edilməsinin vurğulanması, bu cəfəngiyyatın erməni tarixi dərsliklərinə salınmasıdır.

Əslində, Rusiya XİN Ermənistan rəhbərliyinə tamam başqa məzmunlu müraciət də ünvanlaya bilərdi. Məsələn, Kremlin nankor olmamaq çağırışını səsləndirməsi tam mümkündür və yerinə düşür. Axı hazırkı Ermənistan dövlətinin mövcudluğu məhz Rusiyanın sayəsindədir. Bunu danmaq olmaz. Hərçənd rəsmi İrəvana olub-keçənlərin inkarının, eyni zamanda, tarixi təhrif etməyin heç bir çətinlik yaratmadığı gün kimi aydındır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Minsk qrupu – İrəvan üçün "saman çöpü"

(əvvəli 1-ci səhifədə)

Yəni aşkar görünən odur ki, İrəvan sülh müqaviləsi imzalanana qədər Minsk qrupunun buraxılmasını təxirə salmaq niyyətindədir. Bu mövqe, aydın məsələdir ki, sülh danışıqları prosesinin gedişatını ləngidir. İlk baxışda bu təsisatın ləğvi ilə Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesi arasında birbaşa əlaqə yoxdur. Amma Ermənistanın bu məsələdə gözləmə mövqeyinə keçməsi, Azərbaycanın təklifinə müsbət yanaşmaması onun başqa niyyətdə olmasından xəbər verir. Bu məsələ erməni mediasının da müzakirə etdiyi əsas mövzulardan birinə çevrilib. Hayastanın bir sıra siyasi və ictimai xadimləri öz mövqelərini aydın şəkildə ifadə edirlər. Misal üçün, hakim "Mülki müqavilə" partiyasından olan deputat Armen Xaçatryan bildirib ki, Minsk qrupu yalnız sülh müqaviləsi imzalandıqdan sonra buraxılmalıdır: "Hesab edirəm ki, Ermənistanla Azərbaycan arasında sülh yarananda, bütün məsələlər həllini tapanda və sülh sazişi imzalananda ATƏT-in Minsk qrupu buraxıla bilər. Yalnız bunlar baş verəndən sonra biz bu məsələni müzakirə edə bilərik. Amma indiki vəziyyətdə onun müzakirəsi qətiyyən yolverilməzdir".



*

"Ermənistan hökuməti 4 ildir ki, fəaliyyəti donmuş vəziyyətdə olan ATƏT-in Minsk qrupunun buraxılmasında niyə maraqlı deyil? Paşinyan iqtidarı doğrudanmı "anadan şikəst doğulmuş" bu təsisatı saxlamaqla sülh danışıqlarında Bakıdan hansısa güzəşti qoparacağına ümid edir? Bu məqamda keçək məsələyə Ermənistan rəsmilərinin münasibətinə. Hayların spikeri Alen Simonyan bildirib ki, Minsk qrupunun buraxılması tələbi ilə bu formada ATƏT-ə müraciət etməyə ehtiyac qalmır. O, bunu belə izah edib: "Sülh sazişi imzalanandan sonra Minsk qrupunun aqibəti barədə danışmaq mümkün olacaq. Onsuz da sülh müqaviləsi imzalanandan sonra bu formatın mənası qalmır. Biz sülh sazişi imzalayanda məsələ avtomatik olaraq öz həllini tapacaq".

Amma parlamentin müxalifətçi deputatı Qeqam Manukyan məsələ ilə bağlı rəsmi İrəvanın da altniyyətini ifadə edən açıqlamasında bildirib ki, ATƏT-in Minsk qrupu gələcəkdə "Qarabağ problemi"ni beynəlxalq gündəmə qaytarmaqdan ötrü Ermənistan üçün faydalı mexanizm ola bilər. "Minsk qrupu qorunub saxlanmalıdır. Bu, bizim üçün beynəlxalq səviyyədə unikal legitim platformadır. Onun vəzifəsi, yeri gəlmişkən, Minsk qrupunun mandatına daxil olan "Qarabağ münaqişəsinin" həlli məsələsidir. Bu mandat qaldığı üçün problem də durur. Regionda baş verə biləcək geosiyasi dəyişiklikləri, Rusiya – ABŞ/Qərb münasibətlərində mümkün korrekturaları nəzərə alsaq, gələcəkdə vəziyyətin kəskin surətdə dəyişə biləcəyi də istisna edilmir. Yəni, Ermənistan əlində olan bu qanuni mandatdan əl çəkməməlidir", – deyə müxalifətçi deputat qeyd edib.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** mövzu ilə bağlı "XQ"yə açıqlamasında bildirdi ki, Bakının ATƏT-n Minsk qrupunun ləğvi ilə bağlı qaldırdığı məsələ Ermənistan üçün, bir növ, test sayılmalıdır: "Əgər İrəvan, doğrudan da, Qarabağ iddialarından əl çəkibsə və bu məsələnin beynəlxalq gündəlikdən çıxarılmasına razıdırsa, təklifə müsbət cavab verməlidir. Əks-təqdirdə, Paşinyan iqtidarı ya hoqqabazlıqla məşğuldur, ya da sülh sazişi imzalanandan sonra Minsk qrupundan istifadə etməklə Qarabağ məsələsini yenidən gündəmə gətirmək xəyalı ilə yaşayır. Onlar



deyirlər ki, ATƏT-ə sülh müqaviləsi imzalanandan sonra müraciət edə bilərik. Xeyr! Müraciət məhz indi olunmalıdır. Bu olmadığı halda sülh müqaviləsini də unutsunlar. Əslində, Minsk qrupu Bakı üçün elə də maneə sayılmır. Bu qrupun həmsədrlərini Azərbaycandan yola salmışıq və Minsk qrupunun adından heç kəs ərazimizə ayaq basmaq iqtidarında deyil. Azərbaycan Qarabağ məsələsini daha kiminləsə müzakirə etməyəcək. Axı, münaqişə sırf Azərbaycanın ərazisində olmuşdu və indi lüzumsuz vasitəçiliyi bizə kim təklif edə bilər?".

Ermənistanın Minsk qrupu dedikdə onun üç ölkədən olan həmsədrlərini nəzərdə tutduğunu nəzərə çatdıran politoloq həmin qrupda Türkiyə, Belarus və Azərbaycanın da olduğunu xatırlatdı: "Bakı bu formatda xoşuna gəlməyən istənilən təşəbbüsü bloklamaq ixtiyarına malikdir. Doğrudur, biz məsələni münaqişə, qalmaqal səviyyəsinə gətirib çıxarmaq istəmirik. Sadəcə olaraq, Azərbaycan öz büdcəsindən Minsk qrupunun "diplomatik turizminə" milyonlarla avro vəsait ödəyir. İndiki məqamda ermənilər hiylə işlədərək sülh müqaviləsinin imzalanmasını qabağa salmağa çalışırlar. Amma sonra qrupun ləğvi ilə bağlı müxtəlif güzəştlərə getməyimizi gözləmək planlarını güdürlər. Guya, yalnız o halda Minsk qrupunun ləğvi barədə düşünə bilərik. Belə köhnəlmiş "nömrələrin" heç bir faydası olmayacaq. Müraciətə qoşulmayacaqları təqdirdə sülh müqaviləsini görməyəcəklər və yenə iki, üçtərəfli təzyiq altında qalacaqlar. İkitərəfli münasibətlər də qurulmayacaq. Onların bu müraciətdən imtina etməklə danışıqlarda Azərbaycandan güzəşt qoparmağa heç bir şansları yoxdur".

*

Yenidən qayıdaq müxalifətçi deputat Qeqam Manukyanın açıqlamasına. Onun mövzu ilə bağlı çıxışından açıq-aydın revanşizm qoxusu gəlir. Bir daha vurğulamaq istərdik ki, Manukyanın bəyanatı özündə Ermənistandakı daşnak-revanşist qüvvələrin niyyət və mövqeyini tam əks etdirir. Bəli, erməni cəmiyyətinin bu kəsimi gələcəkdə geosiyasi vəziyyət dəyişərsə və Ermənistan silahlanma yarışı yolu ilə bölgədə "hərbi balansı təmin edə bilərsə" yenidən Azərbaycana qarşı ərazi iddiaları irəli sürə biləcəklərinə ümid edir. Bu mövqe Ermənistan iqtidarını Azərbaycana qarşı heç bir ərazi iddiasının olmaması və Qarabağ məsələsini bağlanmış hesab etməsi barədə bəyanatları ilə daban-dabana ziddir.

Beləliklə, Ermənistan XİN-in "Azadlıq" radiosunun erməni xidmətinin Bakının məlum çağırışına reaksiyası barədə sorğusuna cavabı məsələnin üzərinə müəyyən qədər işıq saldı. Artıq mənzərə tam aydınlaşdı. ATƏT-in 32 il bundan əvvəl "Qarabağ problemi"nin həlli üçün yaratdığı həmsədrlər institutu – Minsk qrupunun yarıtmaz format olaraq ləğvinin sülh danışıqları ilə əlaqələndirilməsi İrəvanın növbəti "sülh oyunu"dur. Onun bu niyyətinin lobbiçi-revanşist dairələrin quyusundan "su içdiyi" şübhəsizdir.

***İmran BƏDİRXANLI***
***XQ***



# Milli Məclisə seçkilərə 14 gün qaldı

SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Demokratik seçkilər yeni bir başlanğıcdır

**“Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra ilk dəfə parlament seçkilərinə gedir. Məhz buna görə bu seçkilər bütün dünya azərbaycanlılarının diqqət mərkəzindədir”. Bunu “XQ”-yə açıqlamasında Türkiyənin Qars Qafqaz Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər departamentinin müdiri, professor Elnur Həsən Mikayıl deyib.**



Onun fikrincə, Milli Məclisə növbədənkənar seçkilərin həm Azərbaycan, həm də region üçün böyük əhəmiyyəti var və bunu bir neçə aspektdən qiymətləndirmək lazımdır: “Daxili siyasət baxımından seçkilər dövlət idarəetmə sistemində islahatlar və modernləşdirmə prosesinin davamını simvolizə edir. Yeni qanunverici orqanın formalaşması cəmiyyətin dəyişən tələblərinə uyğunlaşmaq, siyasi və iqtisadi islahatları həyata keçirmək üçün platforma yaradır.

Seçkilər demokratik proseslərin gücləndirməsinin göstəricisidir və siyasi sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu, həm də siyasi qüvvələr arasında dialoqun və əməkdaşlığın gücləndirilməsinə şərait yaradır, yeni liderlər nəslinin yetişməsinə, gənc və enerjili siyasətçilərin ortaya çıxmasına səbəb olur. Həm də ölkədə siyasi rəqabət mühitini, idarəetmə strukturunu daha səmərəli edir”.

Azərbaycanın regionda üstün strateji mövqeyinin bölgə ölkələrinə, eləcə də beynəlxalq oyunçulara təsir edə biləcəyini söyləyən professor hesab edir ki, yeni seçilən parlamentin xarici siyasət xətti və qərarları regionda reallığı dəyişə bilər: “Beynəlxalq münasibətlər baxımından, seçkilərin nəticələri Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərəcək. Demokratik proseslərin uğurla həyata keçirilməsi, siyasi iradə nümayiş etdirilməsi beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da gücləndirəcək. Düşünürəm ki, seçkilərin nəticələri iqtisadi əməkdaşlığa da müsbət təsir göstərə bilər. Bölgədə həyata keçirilən transmilli layihələr, xüsusilə enerji sektoruna bağlı təşəbbüslər yeni parlamentin qərarlarından asılı olacaq”.

Qarşıdan gələn parlament seçkilərini milli qürurun və birliyin nümayişi kimi xarakterizə edən alim bunların suverenlik hissini gücləndirdiyini, dövlətin legitimliyini möhkəmləndirdiyini dedi: “Bu seçkilər müstəqil Azərbaycanın tarixində yeni səhifədir, münaqişə dövründən sülh və sabitlik dövrünə keçidin təməlidir. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda keçiriləcək parlament seçkiləri bütün ölkə üzrə idarəetmənin, qanunun və asayişin vahid şəkildə təmini baxımından çox önəmlidir. Milli Məclisə seçkilərin strateji və diplomatik yöndən də xüsusi əhəmiyyəti var. Onun nəticələri Azərbaycanın regional strategiyasına, eləcə də xarici partnyorlarla münasibətlərinə təsir göstərəcək. Bu, Azərbaycana beynəlxalq platformalarda üstün mövqedən çıxış etməyə imkan verəcək”.

Yeni parlamentə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və inkişafı ilə bağlı məsələlərin qanunvericilik bazasında həllinin həvalə olunacağına diqqət çəkən E.Mikayıl ölkənin gələcəyi üçün əsas prioritetlərin infrastruktur, iqtisadi inkişaf və köçkünlərin geri qayıtması sahələrini əhatə edəcəyini dedi: “Bir məsələni də qeyd etməyi vacib sayıram ki, bu seçkilər konkret kiminsə deputatlığa namizədliyini təsdiqləmək yox, ölkə üçün yeni dövrün başlanğıcı olacaq. Əslində, bir dövr millətin sabitlik, inkişaf və inteqrasiyalı gələcəyə ümid bəslədiyi andır. Bu mərhələ, eyni zamanda, milli kimliyi gücləndirmək, uzunmüddətli sülhü təmin etmək üçün bir fürsətdir”.

*Namiq QƏDİMOĞLU*
*XQ*

## Xalq artisti Firəngiz Mütəllimova: Hamı fəal olmalıdır

**“İşğaldan azad edilmiş ərazilərimizdə, xüsusən də Şuşada keçirilən beynəlxalq tədbirlər hər zaman məni sevindirib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunduqdan sonra nəinki beynəlxalq əhəmiyyətli tədbirlər, dövlətimizin təşkil etdiyi istənilən səfər, toplantı biz qarabağlıların könlünü açır. Çünki azad olunan ərazilərə həyatın qayıtmasını görürük. Seçki tədbirləri də belə təqdir olunası hadisələrdəndir”.**



Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Xalq artisti Firəngiz Mütəllimova deyib. O vurğulayıb ki, şuşalılar uzun illər sonra öz doğma yurdlarında seçdikləri deputatlara səs verə biləcəklər: “Bu tarixi hadisə bir şuşalı kimi məni də çox sevindirir. Şuşanın varlığı, əsl sahiblərinə qayıtması mənim üçün bir dünya deməkdir. Eləcə də Şuşada seçki tədbirlərinin keçirilməsinin özü mənə sanki dünyaları bəxş edir. Düzdür, hazırda Bakı qeydiyyatındayam, Şuşamızda səs verə bilməsəm də, azad olunan ərazilərdə yaşayan hər kəsi fəal səsverməyə çağırıram. Bu ilkdir, tarixi hadisədir. Ona görə də sentyabrın 1-də səsvermədə hamı fəal olmalıdır”.

*XQ*

## Medianın və namizədlərin seçki məsuliyyəti olmalıdır

**Mətbuat Şurasının sədri Rəşad Məcid 2024-cü il sentyabrın 1-ə təyin olunmuş Milli Məclisə seçkilər məsələsində medianın və deputatlığa namizədlərin fəaliyyətinə dair fikirlərini bildirib:**



“Qarşıdan ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunduğu dövrün ilk parlament seçkiləri gəlir. Ayrı-ayrı deputatlığa namizədlərin sosial şəbəkələrdəki paylaşımlarına nəzərən, onların prosesə necə fəal hazırlaşdıqlarını, seçicilərlə canlı görüşlər keçirdiklərini müşahidə edirəm. Çox xoşdur ki, deputatlığa namizədlər içərisində saf, səmimi seçki təbliğatı aparanlar var və onlar ənənələrimizə hörmət amilini rəhbər tutmaqla yanaşı, özlərinin kreativ yanaşmalarını da ortaya qoyurlar. Bütün bunlar ölkədə aktiv seçki ab-havasının mövcudluğundan xəbər verir. Heç şübhəsiz, seçkilər günü yaxınlaşdıqca, xoş mənzərələr daha pozitiv çalarlarla zənginləşəcək.

Seçkiqabağı təbliğat-təşviqat mərhələsi olduqca həssas zaman kəsiyidir. Həm deputatlığa namizədlər, həm də cəmiyyətin aparıcı ictimai institutu sayılan media, habelə jurnalistlər həssaslığa adekvat yanaşmalıdırlar. Hesab edirəm ki, media üçün bu yanaşma ilk növbədə mühüm peşəkarlıq tələbidir.

Ümumən, media və deputatlığa namizədlər birgə və birbaşa əməkdaşlığa üstünlük verməlidirlər. Bir çox hallarda deputatlığa namizədlərin seçicilərlə görüşlərinə dair sosial şəbəkə paylaşımları media üçün materiala çevrilir. Əlbəttə, bu da məqbuldur. Ancaq daha yaxşı olar ki, hər iki qütb seçkiqabağı təşviqat-təbliğat kampaniyasında müştərək fəaliyyət göstərsin. Görüşlərə media təmsilçiləri də dəvət olunsunlar. Beləliklə, jurnalistlər də seçicilərlə birbaşa təmasqurma, onların fikirlərini öyrənmə və cəmiyyətə çatdırma imkanı əldə etsinlər ki, bu da son dərəcə vacibdir.

Mətbuat Şurası hər zaman bildirib ki, jurnalistlər namizədlər barədə “qara piar” kampaniyası aparmaqdan çəkinməlidirlər. Şura monitorinqlərində bu məqama xüsusi diqqət yetirib və yetirməkdədir. Əlbəttə, “qara piar”ın yolverilməzliyi o demək deyil ki, namizədlər tənqid olunmamalıdırlar. Sadəcə, cəmiyyət tənqidin səmimiliyinə inanmalı və nəticə çıxarmalıdır. Doğru nəticə çıxarmalıdır ki, seçkidə də düzgün qərar versin.

Bir şəxs, indiki halda deputatlığa namizəd davamlı olaraq media tərəfindən hədəfə alınacaqsa, məlumdur ki, burada səmimiyyətdən və ciddilikdən söhbət gedə bilməz. Əksinə, belə durum jurnalistikanın ictimai çəkisinə ziyan vuracaq. Arzu və tövsiyə edirəm ki, media təmsilçilərimiz fəaliyyətlərində, seçki prosesi ilə bağlı məsələlərdə bu məqamı nəzərə alsınlar, jurnalistika prinsiplərini rəhbər tutsunlar.

Digər tərəfdən, cəmiyyət jurnalistika üçün materialdır. Hazırda deputatlığa namizədlərin seçicilərlə keçirdikləri görüşlər, ümumən onların fəaliyyətləri eyni xüsusiyyətə malikdir. Yəni jurnalistlər cəmiyyətə, cəmiyyətin seçki fəallığına yanaşmada nə qədər məsuliyyətli olmalıdırlarsa, deputatlığa namizədlər də eyni qaydada davranmalıdırlar.

Fikrimcə, deputatlığa namizədlər ümumi stereotipləri nəzərə almalı, elə hərəkət etməli, elə məsələləri qabartmalıdırlar ki, insanlar arasında fərqli assosiasiyalar doğurmasın. Bir sözlə, korrekt olmalı, cəmiyyətə hansı impulsları ötürdüklərinin fərqinə varmalıdırlar. Habelə seçki situasiyasının məxsusiliyini, seçicilərin ovqatını, onların namizədlərə yanaşmada hansı tələblərdə olduğunu düşünməli, reallığa uyğun davranmalıdırlar. Unutmamalıdırlar ki, bu davranışdan cəmiyyətin təkcə onlara deyil, bütövlükdə seçkiyə münasibətinin formalaşması asılıdır. İstər namizədlər, istərsə də media prosesin insanlarımız tərəfindən hansısa formada qeyri-ciddi qarşılanma ehtimalına yol açan bütün meyillərdən uzaq dayanmalıdırlar”.

Media və deputatlığa namizədlərin bir-birinə münasibətdə daha təmkinli mövqe tutmalı olduqlarını xüsusi vurğulayan MŞ sədri bu qənaətdədir ki, onların qarşılıqlı şəkildə nələrisə ədavətə çevirmələrinə dair səhnələr cəmiyyət üçün xoşagəlməz haldır, mənfi nümunədir: “Tərəfləri belə hallardan uzaq durmağa, sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərin xalqımızın və dövlətimizin taleyində müstəsna əhəmiyyətini əsas tutmağa, birgə məsuliyyət nümayişinə çağırıram”.

*XQ*

## 1900 nəfər treninqlərə cəlb edilib

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 1 saylı Şərur - Sədərək, 2 saylı Şərur - Kəngərli, 3 saylı Babək - Şahbuz -Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək - Naxçıvan – Culfa və 6 saylı Ordubad – Culfa seçki dairələrində məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlərə start verilib. Təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlıq səviyyəsinin artırılmasıdır.**



Treninqlərdə MSK tərəfindən hazırlanan slaydların və əyani vasaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və digər məsələlərlə bağlı ətraflı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilib.

Tədbirdə çıxış edən 1 saylı Şərur - Sədərək seçki dairəsinin sədri Niyaz Əsgərov, 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin sədri Taməddin Hüseynov yerli komissiya üzvlərinin maarifləndirilməsi işinin yüksək səviyyədə təşkil olunduğunu qeyd ediblər.

Diskussiya şəklində təşkil olunan və 1900 nəfərin cəlb edildiyi treninqlərdə məntəqə seçki komissiyalarının üzvlərini maraqlandıran suallar cavablandırılır.

*XQ*

# Seçki xəbərləri



### Doğma yurda qayıdan seçicilərin sayı açıqlanıb

Milli Məclisə növbədənkənar seçkilərdə işğaldan azad olunmuş ərazilər üzrə 42 mindən çox seçici səs verəcək.

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu MSK sədri Məzahir Pənahov deyib. O qeyd edib ki, azad olunan ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərəcək: “Onların 34-ü daimi, 20-i müvəqqətidir. Amma müvəqqəti seçki məntəqələrinin sayı artırıla bilər”. Hazırda ölkə üzrə seçicilərin sayı 6 421 073 nəfərdir.

### STM də “exit-poll” keçirəcək

MSK Milli Məclisə seçkilərdə “exit-poll” keçirmək niyyətində olan daha bir müraciətə baxıb.




“Seçki 2024” Müstəqil Media Mərkəzinin xəbərinə görə, komissiyanın iclasında MSK sədrinin müavini Rövzət Qasımov deyib ki, Sosioloji Tədqiqatlar Mərkəzi seçkilərdə “exit-poll” keçirmək niyyəti ilə MSK-ya müraciət edib: “Bu təşkilat 75 seçki dairəsinin 750 seçki məntəqəsində “exit-poll” keçirmək niyyətindədir. Onların sənədlərində heç bir uyğunsuzluq, hüquq pozuntusu aşkarlanmayıb və quruma “exit-poll” üçün şərait yaradılması qanunauyğun hesab edilib”.

### Müşahidə müraciəti gələn həftə başa çatır

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, Seçki Məcəlləsinin 1.1.19, 1.1.20, 40.4 – 40.6, 44-cü maddələrinə əsasən, aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında) və beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyənləşdirilmiş qaydada MSK-da qeydiyyatdan keçməklə) seçkilərin təyin edilməsi haqqında sərəncam rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələri MSK-ya təqdim etməlidirlər.

### Penitensiar xidmətdə seminar-müşavirə

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Ədliyyə Nazirliyinin Penitensiar xidmətində seminar-müşavirə keçirilib. “Seçki 2024” Müstəqil Media Mərkəzinin məlumatına görə, Penitensiar xidmətin rəhbərliyinin, MSK nümayəndələrinin, xidmətin baş idarəsinin məsul əməkdaşlarının, cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarının rəislərinin, mühafizə alayı və konvoy taboru komandirlərinin, habelə ərazi üzrə müvafiq seçki dairə komissiyaları sədrlərinin və media təmsilçilərinin iştirak etdikləri tədbir penitensiar müəssisələrdə seçkilərin təşkili və səsvermənin keçirilməsinə həsr olunub.



*Hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Cənubi Qafqazda siyasi sərgərdanlıq

**I MƏQALƏ**

**Risk nə etdiyinizi bilməməkdən qaynaqlanır.**

**Uorren BAFFET**




## Tarixə ekskurs

Ermənistanın siyasi kursu Cənubi Qafqazda ümumi vəziyyəti o dərəcədə qarışdırmağa yönəlmişdir ki, geosiyasi dinamikanın ümumi mənzərəsini anlamaq üçün yeni terminlərə baş vurmaq lazım gəlir. Cənubi Qafqazda qondarma "Ermənistan" yaradılandan başlayan bu tendensiya indi siyasi və geosiyasi trend kimi baş ağrısına çevrilmişdir. Son 100 ildən çox müddətdə bu regionda baş verən siyasi və geosiyasi hadisələrin ümumi məzmununa baxsaq, hər addımda "erməni etirazı", "erməni iddiası", "erməni tələbi" və "erməni soyqırımı" kimi neqativ enerjili anlayışlar qarşımıza çıxacaqdır. Erməni tarixçiləri və siyasi dairələrinin tarixi faktlara münasibəti də qeyri-müəyyən olmuşdur.

Özü də onlar üçün elə bir sabit kriteriya yoxdur ki, həmişə əməl etsinlər. Vəziyyətdən asılı olaraq siyasi sərsərilər kimi tarixi, siyasi, diplomatik sahələrdə "sərgərdan gəzintilər" etmişlər. Dünən həqiqət kimi car çəkdiklərini bu gün tamamilə fərqli anlamda "əsl həqiqət" olaraq təqdim etməyə çalışırlar.

Hər kəs üçün aydındır ki, bu erməni siyasi sərgərdanlığı (və ya veyillənməyi) əsasən türklərə və müsəlmanlara qarşı özünü göstərmişdir. Dövlət səviyyəsində isə başlıca hədəfləri (havadarlarının göstərişi ilə) Azərbaycan və Türkiyədir.

II Qarabağ savaşından sonra ermənilərin həm siyasi şüurunda, həm də rəsmi siyasi kursunda "tektonik silkələnmələr" daha da gücləndi. Nəzəriyyə üçün maraqlı idi ki, bu neqativ dəyişiklik, ümumilikdə, erməni siyasətində hansı yeniliklər edəcəkdir? Çünki Ermənistan başqaları tərəfindən öz maraqlarına uyğun yaradılmışdı. Dərhal da Rusiyanın tam nəzarətində olan geosiyasi və siyasi-ideoloji mühitin – sovetlərin təsiri altına düşmüşdülər. Yəni faktiki olaraq, erməni dövlətçilik şüuru radikal, ultra, şovinist anti–türk mühitindən anidən güclü rus dövlətçilik şüuru və ideoloji konyukturasının təsiri altına düşdü.

Bu zaman anti–türk nifrəti şüurlarda və əməldə saxlanıldı, lakin Rusiyanın maraqlarından kənara çıxmağa imkan verilmədi. Buna baxmayaraq, erməni siyasi sərgərdan şüuru 70 il özünü gizli qorumuşdu və hətta türklərə (azərbaycanlılar da daxil olmaqla) şovinizmi və nifrəti saxlamışdı. Bunun bariz nümunələrini sovet dövründə belə ermənilərin azərbaycanlılara qarşı "soyqırımı" bəhanəsi ilə qəddarlıqlarında görmək olurdu. Türkiyə sərhədin o tayında olsa da, diaspor vasitəsilə ora da öz yaramaz əməllərini daşımağa çalışırdılar.

Nəhayət, erməni siyasi şüurunun əsl mahiyyəti sovetlərin dağılması ilə maskasından çıxdı. Aydın oldu ki, ermənilər daimi və stabil siyasi xətt tuta bilmirlər. Onlar siyasi meydanda sərsəri kimi sərkərdanlıq edir və hər hansı siyasi mövqe seçmələri "randomik" ("random" – prosesin gedişinin daxili məntiqi ilə bağlantısı olmayan və kənar təsirlərdən meydana gələn təsadüfi seçimdir) xarakter daşıyır. Buna uyğun olaraq, keçən əsrin 90-cı illərində erməni siyasəti regionda dağıdıcılığın rəmzinə çevrildi. Bunda heç bir əsas və diplomatik məntiq yox idi. Ermənistan mövcud reallıqlar sahəsində təsadüfi sərgərdanlıqla məşğul oldu. Bu fəaliyyət Cənubi Qafqaz üçün həmin dövrdə və indi də ciddi narahatlıq doğuran geosiyasi mənzərə yaratdı. Onu aydın təsəvvür etmək üçün yuxarıda işlətdiyimiz anlayışları izah edək.

## Siyasi sərgərdanlıq və realpolitika

"Siyasi sərgərdanlığ"ın mənası, ümumiyyətlə, "təsadüfi sərgərdanlıq" anlayışından qaynaqlanır. "Təsadüfi sərgərdanlıq" ilk dəfə Karl Pirs tərəfindən riyaziyyat üçün daxil edilmişdir. Bu, hər hansı riyazi məkanda təsadüfi addımların yaratdığı təsadüfi prosesdir. Yəni həm atılan addımlar təsadüfidir, daxili məntiqə əsaslanmır, həm də bütövlükdə, proses daxili məntiqi olmayan təsadüfi xarakterlidir. Siyasi nəzəriyyədə buna bənzər yanaşma mövcuddur.

Hər hansı siyasi-diplomatik addım daxili məntiqi reallıqdan deyil, kənar təsirlərlə təsadüfi atılırsa, siyasətçinin fəaliyyəti mənsub olduğu dövlətin sərhədləri ilə məhdudlaşmır – o, daha geniş mənada siyasi və geosiyasi dinamikanın məsuliyyəti sahəsinə təsir edir. Yəni Ermənistanda siyasi rəhbərlik təsadüfi addım atırsa, onun təsiri regional səviyyədə hiss oluna bilər. Bu da siyasi sərgərdanlığın regional miqyasda neqativ rol oynaması anlamına gəlir.

Aydındır ki, bu, realpolitikaya tamamilə təsiri olan bir hadisədir. Realpolitika daim mövcud şərtlər daxilində siyasi-diplomatik fəaliyyəti tələb edir. Özü də xilasedicilik, quruculuq, konstruktivlik mənasında işlədilir. Deməli, siyasi təsadüfi addımlar (sərgərdanlıq və ya randoma) faktiki olaraq milli və regional miqyasda risk yarada bilər.

Nəzəriyyəçilər doğrudan da onun siyasi risk yaratdığından bəhs edirlər. Bu, ölkənin və regionun iqtisadi-siyasi stabilliyinin və inkişafının qarşısına çıxan əngəllərdə əksini tapa bilər. Tədqiqatçılar eyni zamanda, onu da vurğulayırlar ki, hər bir variantda siyasi risk geosiyasi kontekstli olur. Yəni o, özündə həm də geosiyasi riski daşıyır. Məsələnin bu tərəfi Cənubi Qafqazın bugünkü geosiyasi mənzərəsi üçün aktualdır. Deməli, siyasi-diplomatik sərgərdanlıq real surətdə geosiyasi risklər əmələ gətirir. Məsələnin bu aspekti üzərində regiondakı indiki vəziyyət prizmasında geniş dayanaq. Öncə, siyasi-diplomatik sərgərdanlığın meydana gəlməsinin bir elmi incəliyinə baxaq.

## Təfəkkürün sərgərdanlığı

Elmdə belə bir anlayış vardır. İngiliscə, "mind wandering" kimi ifadə edilir. Bu beynin elə bir vəziyyətidir ki, o, əsas məsələdən avtomatik olaraq ikinci dərəcəli məsələlərə keçid edir. Bununla ani olaraq real situasiyani itirir, onu "tuta bilmir". Nümunə kimi göstərə bilərik ki, qarşısına konkret məqsəd qoyan insan özündən asılı olmayaraq, ondan yayınır və həmin situasiyada ikinci dərəcəli olan işlərlə məşğul olur. Siyasətdə də əgər qarşıya, məsələn, ölkənin böhrandan xilas olması məqsədi qoyulmuşsa, siyasətçinin ondan yayınıb, hansısa ikinci dərəcəli məsələlərlə məşğul olması (məsələn, kənar təsirlə başqa dövlətin maraqların cavab verən addımlar atması) siyasi şüurun sərgərdanlığı əlamətidir. Maraqlıdır ki, bu cür halların səbəbləri içərisində tarixi ənənəni, siyasi mentaliteti və ideoloji sərgərdanlığı göstərirlər.

Belə çıxır ki, indi müşahidə edilən "erməni siyasi sərgərdanlığının onların mentaliteti, dünya duyumu, siyasi düşünmə ənənəsi və psixoloji özəllikləri ilə bağlılığı vardır. Bu sindrom zaman-zaman erməni siyasətçilərin şüurlarını reallıqdan ayırır və onların təsadüfi, məntiqsiz addımlar atmasına səbəb olur. Ancaq belə "şüuri apatiyalar" bütöv regionda risklərin yaranmasını motivə edir. Yəni erməni siyasi və geosiyasi sərgərdanlığını neytrallaşdırmaq elə də asan məsələ deyildir.

## Erməni siyasi-diplomatik sərgərdanlığı

Yəqin hər kəs II Qarabağ savaşından sonra Ermənistan siyasi dairələrinin tez-tez heç bir məntiq olmadan mövqelərini dəyişdiklərini və tamamilə fərqli fikirlər ifadə etdiklərini müşahidə etmişdir. Bunlar təsadüfi və yalnız Ermənistanın daxili vəziyyəti ilə izah olunan hallar deyildir. Birmənalı deyə bilərik ki, müharibədən aldığı çox ağır (və haqlı) zərbədən sonra erməni siyasi şüuru tamamilə darmadağın olmuşdu. Biz burada yuxarıda qoyduğumuz suala qayıtmalı olacağıq. Yəni, müstəqilliyin erməni siyasi şüurunda hansı dəyişikliyi etdiyini aydınlaşdırmalıyıq.

Proseslər onu göstərdi ki, II Qarabağ savaşına qədər erməni siyasi şüurunda ciddi heç bir dəyişiklik olmamışdır. Sovet dövründə gizli qalan radikal, neqativ siyasi-psixoloji və ideoloji məqamlar daha açıq və sərhədsiz formada inkişaf etdirilmişdir. Ermənilər daha təmtəraqlı formada "soyqırımı" qeyd edirdilər, dünyanın müxtəlif yerlərindən siyasətçiləri dəvət edib, şou göstərirdilər.

Bunlara Qərbin təhriki ilə demokratiya və liberalizm şoaları da əlavə olunmağa başladı. Havadarlarının birbaşa yardımı ilə işğal etdikləri Azərbaycan torpaqlarını öz gücləri ilə zəbt etdiklərinə özlərini inandırdılar. Hesab edirlər ki, doğrudan da, onlar güclüdürlər. Və bu yanlış düşüncə erməni siyasi şüurunda nəinki müstəqil düşünməyə meyli sıfıra endirdi, hətta daha çox onlardan asılı vəziyyətə saldı.

İndiki proseslər göstərir ki, hələ də erməni siyasi şüuru həmin bəladan yaxa qurtara bilməmişdir. Buna görədir ki, biz eyni məsələ haqqında erməni siyasətçilərin fikirlərini çox sürətlə dəyişdiyini müşahidə edirik. Məsələn, bu gün deyirlər ki, sülh müqaviləsini imzalamaqda maraqlıyıq. Sabah isə bunun əksini söyləyirlər: "yox, gərək filan şərt ödənsin!" Deyək ki, Azərbaycan erməni konstitusiyasından təcavüzkarlığı ifadə edən maddələrin çıxarılması şərtini qoymuşdur. Öncələr, bunu yerinə yetirməyə meylli görünürdülər. Sonra isə başqa mövqe ortaya qoydular.

Eynilə, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı olduqca məntiqsiz izahlar verməyə çalışırlar. Onlar deyirlər ki, bu qrup yeganə legitim vasitəçidir. Ağ yalandır! Münaqişə həll edilmişdir və Azərbaycan ərazi bütövlüyünü tam bərpa etmişdir. Ermənistan rəhbərliyi bununla bağlı həm sənəd imzalamışdır, həm də rəsmi etiraf etmişdir. N.Paşinyan bəyan etmişdir ki, Qarabağ məsələsi həll olunmuşdur. Qalır iki ölkə arasında sülhə nail olmaq.

İndi isə heç zaman real vasitəçilik funksiyasını yerinə yetirməyən ATƏT-in Minsk qrupunu "legitim" kimi təqdim etməyə çalışır və sülh müqaviləsinin imzalanmasını bu qondarma və saxta qurumun fəaliyyəti çərçivəsində görürlər.

Bu kontekstdə ABŞ hərbi kontingentinin Zəngəzura yerləşdirilməsi yeni risklər əmələ gətirir. Bu proses fonunda Azərbaycanın ağıllı və təmkinli siyasi mövqeyi regionu sabitlikdən çıxmağa qoymadı. Lakin məsələnin bu aspekti yalnız bizim regionla məhdudlaşmır. Çünki beynəlxalq miqyasda Zəngəzur məsələsi qlobal "Yeni İpək Yolu" layihəsi çərçivəsində Orta dəhlizin tərkib hissəsi kimi qəbul edilir. Belə alınır ki, erməni siyasəti faktiki olaraq Çinin irəli sürdüyü layihənin önünə əngəllər çıxarır.

Təbii ki, bunu özünün daxili məntiqi ilə etmir. Belə gedişat Qərbə sərfəlidir. Qərb son zamanlar Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətlərində fəallıqlarını bir tələbləri fonunda artırmışlar: enerji resurslarının daşınması marşrutları Çin və Rusiyadan yan keçməlidir. Zəngəzurda Amerika hərbi kontingentinin mövcudluğu həmin ərazinin onların ixtiyarına verilməsi istiqamətində atılmış ilk addımdır.

Buradan çox təhlükəli nəticələr çıxır. Aydın görünür ki, erməni siyasətçilər regionun geosiyasi məntiqinin tamamilə ziddinə olaraq, "təsadüfən kənar sifarişlə siyasi addım atmışlar". Bu addımın regionda vəziyyəti Ermənistanın xeyrinə dəyişəcəyinə ümid edirlər. Lakin təcrübə göstərir ki, bu cür ümidlər çox yanlış nəticələrə aparıb çıxarır. Çünki "siyasi-diplomatik veyillənmək", bir qayda olaraq, geosiyasi risklər əmələ gətirir. Bu məqamın üzərində dayanmaq lazım gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni millətçiliyinin təməl prinsipləri

**(əvvəli qəzetin 16 avqust sayında)**

Erməni millətçiliyi şovinizm və irqçiliyə söykənir. Erməni ideoloqlarının həmin illərdəki nəşrlərində yaşadığı ölkəyə qarşı xaricdən dəstək almaq, fanatik və təcavüzkar düşüncələr təbliğ olunurdu. Bu mənada erməni millətçiliyinin ilk nəzəriyyəçilərindən olan Qriqori Yeremeyeviç Artsruninin fikirləri mövzunun aydınlaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

Artsruni Tiflisdə nəşr etdirdiyi "Mşak" (Rəncbər) adlı qəzetində Osmanlı rəhbərliyindəki erməniləri üsyana səsləyirdi. Yazdığı məqalə və kitablarında Artsruni türkləri, kürdləri və müsəlmanları alçaldıb, ələ salırdı .

O, 1879-cu il mayın 11-də Tiflisdə iş adamları klubunda çıxışında "Bu qədər geniş mədəni qabiliyyətləri olan ermənilər nə üçün özündən min qat geri barbar boylar üzərində hakimiyyətə nail olmayıb?" sualı ilə başlayır və sonra deyirdi ki, ermənilər, qonşu millətlərin hamısından, hətta xristian olan millətlərdən tamamilə fərqlidir və mədəni qabiliyyətləri ilə seçilməkdədir: "Digər millətlər sonda o qənaətə gələrək erməniləri özlərinə rəhbər seçəcəklər. Çünki ermənilər ağlı və qabiliyyəti ilə onların hamısından üstündür".

Türklər və kürdlərdən bəhs edərkən Artsruni yazır: "Nə türklərin, nə də vəhşi kürdlərin keçmişi, tarixi, ədəbiyyatı, məktəbləri, iqtisadi istehsal ruhu və iş qabiliyyəti vardır. Təbiət, bütün xalqlara eyni cür qabiliyyətlərə sahib beyin verməmişdir. Türklərin və kürdlərin mədəniyyətə və sənətə meyilləri yoxdur. Dilləri vardır, ancaq çox geri qalmış və primitivdir. Bu dillərdə ən yaxşı ehtimalla orta məktəb təhsili verilə bilər".

Artsruniyə görə, mədəni "ari və semit irqləri" sırasında olan ermənilər Kiçik Asiyada bu xüsusiyyətlərinə görə qəsdən barbarların idarəsi altına verilmişdir. Avropa səhvini düzəltməlidir.

Erməni millətçiliyinin ideoloji təməllərini qoyduğu kitablarında Artsruni kürdlərin ən əhəmiyyətli məşğuliyyətlərinin oğurluq, talançılıq olduğunu ifadə edir. Ermənilərlə birlikdə yaşayan kürdlər hər zaman onların xidmətində çalışmış, hətta müsəlman olsalar da, erməni kilsəsinə gəlib ermənilərlə "anlamazlıqdan" peşman olduqlarını ifadə edən dualar etmişlər.

Artsruniyə görə, kürdlər üçün din anlayışı yoxdur. Kürdlər ermənilərin ən etibarlı əlaltısı olmuşlar, ancaq əllərinə fürsət düşən kimi xidmət etdiyi ağasının, sahibinin evini yağmalamış, onu öldürmüş, həyat yoldaşına, qızlarına təcavüz etmiş, mallarını oğurlamışlar.

Türklərə gəlincə, Artsruniyə görə, onlar tənbəl, kütbeyindirlər, ermənilərin hesabına yaşayırlar. Kasıb və ya varlı, fərqi yoxdur, türk qadını kişilərinin ehtiraslarını təmin etmək və hərəmlərini bəzəmək üçün doğulmuşlar. Müsəlmanlar arasında nə bir usta var, nə də qabiliyyətli fəhlə. Ermənilər çalışqan bir xalqdır, müsəlmanlar isə bunun tam tərsidir. Göründüyü kimi, ermənilər, bir tərəfdən quldur kürdlərlə, digər tərəfdən ağılsız, tənbəl, rüşvətxor türklərlə əhatə olunmuşlar.

Artsruninin "Ekonomiçeskoe polojenie Turetskix armyan" ("Türkiyə ermənilərinin iqtisadi vəziyyəti") kitabının yazılmasının səbəbi dünyanın, xüsusən Rusiyanın diqqətini Türkiyə ermənilərinin yaşadığı bölgənin təbii zənginliklərinə və böyük iqtisadi potensialına çəkmək olub. Bu kitabla Artsruni ermənilərin özünü də bu sərvətlərə sahib olmaq üçün üsyana çağırır. Kitabda "zalım müsəlmanlara qarşı qisas duyğularını oyandırmaq məqsədi" açıq bildirilir.



Qriqori Artsruni "Mşak" qəzetindən də bu ideologiyanın yayılmasında əhəmiyyətli bir vasitə kimi istifadə etmişdir. O bu qəzetə öz həmfikirləri olan Raffini, Arpiar Arpiaryanı, Leonu, Mkrtıç Portukalyanı, Mikael Varandyanı cəlb edərək bu irqçi ideologiyanı yaymaq üçün onların da yazılarından faydalanmışdır. 1880-ci illərdə erməni ideoloji hərəkatındakı önəmli şəxslər bu qəzetə yazılar göndərirdilər. Dönəmin erməni milli ideologiyası da bu qəzet ətrafında formalaşmışdı. Bu ideologiya anti-türk ovqatını dərinləşdirən düşmənçilik ideologiyası idi.

1885-ci ildə Fransada yaradılan "Armenakan", 1887-ci ildə Cenevrədə təşkil olunan "Hnçak" və 1890-cı ildə Tiflisdə əsası qoyulan "Daşnaksütyun" millətçi partiyalarının ideya istiqaməti Artsruni və onun ardıcıllarının nəzəriyyəsindən qaynaqlanırdı. Bu partiyalar Osmanlı İmperiyası və İrandan qaçmış ermənilərin yaşadığı əraziləri birləşdirmək üçün bütün vasitələrdən, ən əsası isə qiyam və terror aktlarından geniş istifadə etməyi qarşılarına məqsəd qoymuşdular. "Mşak"da gedən yazılarda bu üsyana bütün erməniləri təşviq olunurdu. "Hnçak" partiyasının proqramı xüsusilə bu fikri ifadə edirdi: "Bütün şəraitlərdə türkləri və kürdləri məhv etmək və öz xalqının rifahına xəyanət etmiş ermənilərə aman verməyərək onlardan qisas almaq".

Artsruninin irəli sürdüyü ideyalar daşnakizmin də əsasını təşkil etmişdir. Daşnakizmin "Əsas İncili" (Karinyan) olaraq xarakterizə etdiyi "Türkiyə ermənilərinin iqtisadi vəziyyəti" kitabında təcavüzkar erməni millətçiliyinin ortaya çıxdığının şahidi oluruq. "Daşnaksütyun" da "Hnçak" partiyasından fərqli deyildi. O da nasist tipli partiya idi. Almaniya Milli Sosialist Partiyasının ideologiyasını onlardan hələ 30 il əvvəl formalaşdırmışdı. Hədəfə çatmaq proqramları bundan ibarət idi:

1) Silahlı qiyam;

2) yalnız ermənilər arasında yox, bütün xalqlar arasında inqilabi fikrin formalaşması üçün intensiv iş görmək;

3) ermənilərin silahlanması və təşkilatlanması;

4) hökumət adamlarının fiziki cəhətdən aradan götürülməsi ...

"Daşnaksütyun"un fəaliyyətini ardıcıllıqla izləyən gürcü yazıçısı Karibi 1919-cu ildə dərin ağrı hissilə yazırdı: "Daşnaklar gələrkən özləri ilə milli nifrət toxumu gətirdilər. Və deməliyəm ki, belə bir toxumlar səpilmiş torpaq üzərində erməni – müsəlman qan davası və erməni-gürcü müharibəsindən başqa bir şey bitə bilməzdi". Başqalarına nifrət hissi, özlərini bütün xalqlardan ağıllı görmək xəstəliyinə tutulmuş Ermənistanda bu gün də eyni tendensiya davam edir.

**(ardı var)**

***Qﬁ a Ç AXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# “Bakı Metropoliteni” “Metro İstanbul”la qardaşlaşıb

**2025-ci ildə Bakıda dünya metropolitenlərinin konfransı təşkil ediləcək. Avqustun 16-da ilk beynəlxalq konfransın təşkilati məsələlərinin həlli ilə bağlı “Bakı Metropoliteni” QSC və “Metro İstanbul” arasında anlaşma memorandumu qəbul edilib.**

Sənədi “Bakı Metropoliteni” QSC-nin sədri Zaur Hüseynov və “Metro İstanbul”un baş direktoru Özgür Soy imzalayıblar.

“Bakı və İstanbul metrosu arasında 2015-ci ildən qarşılıqlı əlaqələr intensiv şəkildə davam etdirilir. Əldə olunmuş nailiyyətlər bundan sonra dünyanın digər metropolitenlərinin cəlb edilməsi ilə yeni müstəviyə keçə bilər”, – deyə “Bakı Metropoliteni” QSC-nin sədri Zaur Hüseynov qeyd edib. O, daha sonra konfransın gələcəkdə bütün metropolitenlər üçün ən uğurlu platformaya çevrilməsi üçün birgə planlar üzərində iş aparılacağını bildirib.



“Metro İstanbul”un rəhbəri Özgür Soy tədbirin gələcək uğuruna inandığını qeyd edib. O, iki qardaş ölkə metropolitenlərinin birlikdə dünya metropolitenlərinə yeni və uğurlu platforma təqdim edə biləcəyini deyib. Özgür Soy diqqətə çatdırıb ki, “Bakı Metropoliteni” QSC-nin zəngin təcrübəsi və keyfiyyətli texniki xidməti, təşkilati məsələlər, İstanbul metrosunda tətbiq edilən texnoloji yeniliklər, Azərbaycan və Türkiyə müəssisələrinin inkişaf edən potensial istehsal imkanlarının daha geniş miqyasda yayılması baxımından, birgə layihələrin inkişaf etdirilməsinə təkan olacaq. Özgür Soy, eyni zamanda bu layihənin istehsalçılarla metropolitenlər arasında bir körpü rolunu oynayacağına əminliyini ifadə edib.

Sonra əməkdaşlıq platformasının media təqdimatı keçirilib. Qeyd olunub ki, 2024-cü ilin əvvəlində Bakı və İstanbul metropolitenləri arasında irəli sürülmüş ideya ətrafında fikir və təcrübə mübadiləsinə başlanılıb və təşkilati məsələlərə dair müzakirələr aparılıb. Qardaşlaşmanın “Metrokonnekt” (MetroConnect) adlandırılması qərara alınıb. İlk konfransın Bakıda keçirilməsi barədə razılıq əldə olunub. Aparılan araşdırmalar əsasında bu sahədə metropolitenlər üçün ən zəruri məsələlərin və problemlərin birgə həlli, perspektivlərin, yeniliklərin, xüsusən də innovativ təkliflərin müzakirə olunmasına ehtiyac duyulduğu aşkar edilib.

Məclisin gündəliyində inşaat, vaqon yığılması və təmiri, metropolitenin qurğu, avadanlıq və sistemləri ilə bağlı son nailiyyətlər, innovativ texnologiyalar, süni zəkanın rolu, təmir və xidmət zamanı əsas problemlər, o cümlədən standartlar və təhlükəsizlik, sərnişin məmnunluğu sahəsindəki təcrübə mübadiləsi, elmi-tədqiqat uğurları və s. mövzular xüsusi yer alacaq.

Görüş və müzakirələrin təkcə metropolitenlər deyil, eyni zamanda istehsalçılar, habelə elmi-tədqiqat və təhsil müəssisələri üçün marağı nəzərə alınaraq, sərgi və Bakı metrosunda tətbiq edilmiş innovasiyaların, metropolitenlər üçün mühüm əhəmiyyət kəsb edən digər vacib məsələlərə dair ekskursiyaların təşkili nəzərdə tutulub.

“Metro İstanbul” nümayəndələrinin Bakıya səfəri 2 gün davam edib. Bu müddətdə sazişin əsas məqamları, görülmüş işlər, qarşıdakı planlar və vəzifələr müzakirə olunub.

# Azərbaycan və Gürcüstan dəmir yollarının fəaliyyəti əlaqələndirilir



**“Azərbaycan Dəmir Yolları” QSC və “Marabda-Kartsaxi Dəmir Yolu” MMC-nin törəmə şirkətlərinin təsisçiliyi ilə “BTKI Railways” MMC adlı birgə müəssisə yaradılıb.**

ADY-dən redaksiyamıza daxil olan məlumata əsasən, yeni müəssisə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti üzrə əməliyyatların səmərəli idarə olunması və yeni yüklərin cəlbi istiqamətində fəaliyyət göstərəcək, regionda strateji nəqliyyat əlaqələrinin gücləndirilməsi, eləcə də Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) potensialının dəfələrlə artırılmasında həlledici rol oynayacaq.

Birgə müəssisənin yaradılması 2007-ci il fevralın 7-də BTQ dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Kartsaxi (Türkiyə Respublikası sərhədinə qədər) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip, habelə şərtləri haqqında Azərbaycan və Gürcüstan hökumətləri arasında imzalanan sazişə əsasən həyata keçirilib.

Sənəddə sözügedən sahənin inşası başa çatdıqdan və istismara verildikdən sonra, sahənin bütün dəmiryol infrastrukturunun istismarı və idarə edilməsi ADY-nin törəmə cəmiyyəti ilə “Marabda-Kartsaxi Dəmir Yolu” MMC-nin törəmə cəmiyyəti tərəfindən bərabər payla (yəni nizamnamə kapitalındakı paylar təsisçilər arasında bərabər bölünəcək) Gürcüstanın qanunvericiliyinə uyğun təsis ediləcək hüquqi şəxsə – birgə müəssisəyə verilir. Birgə müəssisə Marabda-Kartsaxi sahəsinin bütün dəmiryol infrastrukturunun istismarı və idarə edilməsi ilə yanaşı, əldə edilən vəsaitdən Gürcüstan tərəfinə ayrılan kredit borcunun tam olaraq geri ödənilməsini də həyata keçirəcək.

Qeyd edək ki, ADY 2023-cü ildə BTQ dəmir yolu xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa, rekonstruksiya və genişləndirmə işlərinə başlayıb və bu ilin yazında 5 mərhələ üzrə reallaşdırılan işləri uğurla başa çatdırıb. Mayın 20-də isə BTQ dəmir yolu xətti üzrə yükdaşımalara təkrar start verilib.

Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ dəmir yolu xəttini dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir. Genişləndirmədən sonra adıçəkilən dəmir yolunun illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.

BTQ dəmir yolunun həyata vəsiqə qazanması qitələrarası daşımalar üçün geniş imkanlar açıb. Belə ki, Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut hesab olunan bu dəmir yolunun yaratdığı əlverişli şərait yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox azaltmağa imkan verib.

Sözügedən dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, o cümlədən Çinin müəllifi olduğu “Bir kəmər, bir yol” iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilir. Ümumiyyətlə, BTQ Orta Dəhliz üzərində yerləşən ölkələr arasında siyasi, iqtisadi və sosial sahələrdə iki, eləcə də çoxtərəfli əlaqələrin əhəmiyyətli dərəcədə inkişaf etdirilməsinə, sabitliyin təmin olunmasına və dayanıqlı inkişaf təşəbbüslərinin dəstəklənməsinə önəmli töhfələr verməkdədir.

Son dövrdə ADY tərəfindən BTQ-nin genişləndirilməsi istiqamətində görülmüş kompleks işləri bu marşrutla daşımaların sürətini artırmağa, daşınan yüklərin təhlükəsizliyini təmin etməyə, çevik tarif siyasəti yürütməyə, irimiqyaslı logistika və marketinq işini canlandırmaqla daha çox tranzit yükün ölkə ərazisindən keçirilməsinə nail olmağa hesablanıb.

Qeyd edək ki, cari ilin əvvəlindən Orta Dəhliz ilə Çindən konteyner daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 dəfə artıb. “Qazaxıstan Temir Yolu” Səhmdar Cəmiyyətinin (SC) mətbuat xidməti xəbər verir ki, Çini Avropa və Türkiyə ilə birləşdirən multimodal nəqliyyat dəhlizinin inkişafı üçün daşımaların həcminin artırılması, xidmətin və yüklərin çatdırılma sürətinin yaxşılaşdırılması istiqamətində işlər aparılır. Bu günə kimi Altınkol stansiyasından Abşerona (Bakı) çatdırılma müddətləri 9 günə, Poti-Batumiyə (Gürcüstan) 12 günə, Poti-Batumi vasitəsilə Konstansaya (Rumıniya) 20-22 günə endirilib.

Orta Dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Çini Avropa ölkələri ilə birləşdirir.

# Sənaye parkları şəbəkəsi iqtisadiyyatı modernləşdirir



(əvvəli 1-ci səhifədə)




Qarabağın dirçəlməsində də sənayeləşmə siyasətinə mühüm önəm verilir. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərimizdə sənaye parklarının yaradılması və bu sahəyə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlarından yararlanmaqla Qarabağın ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Düşməndən xilas olunan torpaqlarımızın dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb ki, bu da iş adamlarının sözügedən sənaye zonalarına marağının artmasına səbəb olub.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə Ağdam şəhərində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb.

Hazırda Ağdam Sənaye Parkında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir və artıq burada sosial zonanın təşkili yekunlaşıb, parka ayrılan 190 hektar ərazi minalardan təmizlənib, elektrik enerjisi və su təchizatı sistemi qurulub. Həmçinin rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb.

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi İdarə Heyətinin sədri Seymur Adıgözəlovun sözlərinə görə, cari il ərzində Ağdam Sənaye Parkında 5-dən çox müəssisənin fəaliyyətə başlaması nəzərdə tutulub. Artıq parkın ərazisinin 60 faizindən çox hissəsi sahibkarların uzun müddətlik istifadəsinə verilib.

Azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsində, eləcə də sənaye sahəsində məşğulluğun təmin olunmasında mühüm rol oynayan “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı isə “Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında” Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə Cəbrayıl rayonunda yaradılıb.

Parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verir.

İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) hazırda Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında, ümumilikdə, investisiya kapitalı 330 milyon manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik, 8 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən sənaye parklarında 2900-dək daimi iş yerinin yaradılması nəzərdə tutulub. Artıq indiyədək rezidentlər tərəfindən sənaye parklarına 89 milyon manatdan çox investisiya yatırılıb, 330-dan artıq daimi iş yeri yaradılıb.

Hazırda ölkəmizdə sənaye parklarının sayı 8 (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam, Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” və Hacıqabul Sənaye Parkı) və 4 sənaye məhəlləsi (Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.

İZİA-nın məlumatına əsasən, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 140-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və “Gömrük tarifi haqqında” Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

# “Günəşli” yatağında yeni quyu hasilata qoşulub

**Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Günəşli" yatağında yeni hasilat quyusunu istismara verib. Qurumun bununla bağlı yaydığı məlumata görə, “Günəşli" yatağında mürəkkəb “341a” saylı quyu yan lülə qazmasından sonra gündəlik 32 ton hasilatla işə düşüb.**



Bildirilib ki, quyuda baş verən mürəkkəbləşmələrə baxmayaraq, neft şirkəti əməkdaşlarının birgə səyləri nəticəsində uğurlu nəticə əldə edilib. Xatırladaq ki, “Günəşli” yatağı Bakı şəhərindən 120 kilometr şərqdə, “Neft Daşları” yatağından 12 kilometr cənub-şərqdə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. “Günəşli” qırışığı “Çilov-Neft Daşları” antiklinal qırışıqlıq qurşağına daxildir. Yataqda dənizin səviyyəsi 80-300 metr aralığında dəyişir. Yatağın uzunluğu 12,5 kilometr, eni 4 kilometrdir. “Günəşli”də, ümumilikdə, 370 quyu qazılıb ki, onlardan 279 quyu istismardadır. İşlənmənin əvvəlindən bu quyulardan 201,3 milyon ton neft (kondensatla birlikdə), 127 milyard kubmetrdən çox qaz hasil olunub.

Qeyd edək ki, yataqda maksimum hasilat 1991-ci ilə təsadüf edib. Həmin il 114 işlək quyudan 6,7 milyon ton neft çıxarılıb. Maksimal qaz hasilatı isə 2008-ci ildə 6,6 milyard kubmetr olub. Hazırda yataq işlənmənin III mərhələsindədir. Hasilatı “Azneft” İstehsalat Birliyinin 28 May adına Neft-Qazçıxarma İdarəsi aparır.

*Səhifəni hazırladı: Vaqif BAYRAMOV XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# Bakıda COP29 hazırlıqları



## Azərbaycan paytaxtı beynəlxalq məclisi yeniləşmiş libasda qarşılayacaq

**Azərbaycan noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ciddi hazırlaşır. Paytaxtımızda da genişmiqyaslı abadlıq-quruculuq tədbirləri sürətlə həyata keçirilir. Küçə və prospektlər, yollar, yaşayış və inzibati binaların fasadları, dam örtükləri, eyvanlar təmir edilir, rənglənir. Səki kənarlarına yeni bardürlər quraşdırılır, yol kənarlarına dekorativ daş döşənir.**

Bütün bunlarla yanaşı, köhnə parklar da yeniləşdirilir, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun dizaynda yenidən qurulur. Həmin ərazilərdə müxtəlif əyləncə qurğuları işə salınır, eləcə də uzun müddət yararsız vəziyyətdə olan fəvvarələr abadlaşdırılır, yaşıllıqlar genişləndirilir. Yol kənarlarında həmişəyaşıl kollar əkilir, güllərdən kompozisiyalar yaradılır.

Sosial layihələrin gerçəkləşdirilməsində mütəxəssislərin, o cümlədən tanınmış memarların, ictimai xadimlərin məsləhət və tövsiyələri nəzərə alınır. Bununla yanaşı, abadlıq-quruculuq işləri nəticəsində küçə və yol kənarlarına, həyət və məhəllələrə yayılan tozun təmizlənməsi, şəhərin sanitar təmizlik səviyyəsinin daha da yüksəldilməsi, mövcud yaşıllıqlara qulluq göstərilməsi məqsədi ilə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) hər həftə ümumşəhər iməcliyi təşkil edilir. Prospektlər, məhəllədaxili və ara yollar bitki və canlılara ziyansız maddələrlə yuyulur, bardürlər, işıq dirəkləri, məhəccərlər, park və istirahət yerlərində oturacaqlar təmizlənir. Magistral yol və prospektlərin kənarlarındakı ağaclar tozdan təmizlənir, dibləri yumşaldılır, yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilir və gübrələr verilir.



BŞİH-nin çağırışına qoşulan müəssisə, idarə və təşkilatların kollektivləri, həmçinin ictimai-iaşə, ticarət və digər obyektlərin əməkdaşları da iməcliklərdə yaxından iştirak edərək obyektlərin vitrinlərini təmizləyir, ətrafda səliqə-sahman yaradırlar. Eyni zamanda, şəhər sakinləri bu təşəbbüsə qoşularaq yaşadıqları mənzillərin pəncərələrini və həyətini təmizləyirlər. Paytaxtda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinin icrası da diqqətdə saxlanılır. Bu istiqamətdə işləri sürətləndirmək məqsədilə BŞİH və “Regional inkişaf” İctimai Birliyi arasında imzalanan əməkdaşlıq memorandumuna əsasən, mənzillərə yaşıl və narıncı rəngli paketlər, məlumatlandırıcı bukletlər paylanılır, məhəllələrdə və binaların bloklarında posterlər yapışdırılır.

Xatırladaq ki, layihənin həyata keçirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına Bakı şəhər kommunal təsərrüfatı xidmətləri üçün müasir tələblərə cavab verən 104 yeni avtonəqliyyat vasitəsi və mexanizmləri alınaraq istifadəyə verilib. Bu layihənin uğurla icrası son illərdə kommunal sahədə həyata keçirilən tədbirlər nəticəsində abad şəhərə çevrilən paytaxtımızın daha təmiz saxlanılmasına, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına, ekoloji mədəniyyətin formalaşmasına, eləcə də iqtisadi səmərənin əldə olunmasına xidmət edir.

Bakı mürəkkəb landşafta, küləkli hava şəraitinə və böyük əraziyə malik şəhər olduğu üçün burada bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsinin idarəsinə həmişə ciddi ehtiyac duyulub. Elə buna görə də 5 il əvvəl BŞİH-nin bu sahədə böyük təcrübəsi olan “Mott MacDonald” şirkəti ilə müqavilə bağlamasında əsas məqsəd şəhərdə bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması, eyni zamanda, Bakını ekoloji təmizliyinə görə Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə qaldırmaq olub.

Böyük Britaniyanın tanınmış “Mott MacDonald” şirkəti ilə birgə hazırlanan layihənin icrasına 177 min əhalisi olan Nərimanov rayonundan başlanılıb. Belə ki, pilot layihə çərçivəsində rayonun hər bir məhəlləsində məişət tullantıları üçün yaradılan meydançalara yaşıl və narıncı rənglərdə yeni, müasir konteynerlər qoyulub. Bununla da sakinlərin tullantıları hara gəldi atmasının qarşısı alınıb.

Tullantılar artıq çeşidlənərək narıncı və yaşıl konteynerlərdə cəmlənir. Rayonun quruculuq və abadlıq işlərinə zidd olan və estetik görünüşünə xələl gətirən hallar isə keçmişdə qalıb. Sakinlərin rahatlığı üçün ilkin mərhələdə hər mənzilə yaşıl və narıncı çeşidləyici paketlər və izahedici bukletlər paylanılıb, bloklara, həyətlərə, binalara maarifləndirici reklamlar vurulub. Əraziyə cavabdehlər təyin olunub. Sonrakı mərhələdə bu təşəbbüsün Səbail, Nərimanov, Yasamal, Nəsimi, Binəqədi, Nizami və Xətai rayonlarında da gerçəkləşdirilməsinə başlanılıb, məişət tullantıları üçün yeni konteyner meydançaları yaradılıb, ərazilərdə müasir konteynerlər yerləşdirilib.

Yeri gəlmişkən, “Mott MacDonald” şirkətinin bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahat konsepsiyasının rəhbəri Martin Saymon bu istiqamətdə gerçəkləşdirilən təşəbbüs haqqında təəssüratlarını bölüşərək bildirib ki, Birləşmiş Krallığın paytaxtı London şəhərində 20 ildən çox müddətdə icra edilən layihədə təkrar emal üçün çeşidlənən tullantıların həcmi 40 faizə yüksəlib. Nərimanov rayonunda isə layihənin icrasının ilk 4 ayı ərzində bu istiqamətdə görülən işlər nəticəsində həmin göstərici 32 faizə çatıb, kağız və karton tullantıları 25 faiz olub. Layihənin icrasının ilk vaxtlarında gündəlik olaraq 6-7 ton təkrar emala gedən tullantı yığılırdısa, artıq 4 ay ərzində bu rəqəm 25 tona çatdırılıb.

Sözügedən təşəbbüsün gerçəkləşdirilməsinin ilk vaxtlarında uğurlarla yanaşı, bir sıra problemlər də diqqət çəkdi. Belə ki, bəzi sakinlərin layihəyə laqeyd yanaşaraq tullantıları hara gəldi atmaları, onların meydançalardakı nəzarətçilərin işinə aqressiv yanaşmaları prosesin tam yerinə yetirilməsinə əngəl törətsə də, mövcud çətinliklər geniş maarifləndirmə və izahetmə işləri ilə aradan qaldırıldı. Nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi Bakını bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi sahəsində aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdırdı, ətraf mühitə müsbət təsir göstərərək həm də şəhərimiz üçün iqtisadi faydalar verdi.

Azərbaycan Prezidenti İlham Əliyevin kommunal sahədə islahatların genişləndirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq BŞİH-nin Böyük Britaniyanın “Mott MacDonald” şirkəti ilə birgə icrasına başladığı bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsi hazırda uğurla davam etdirilir. Nərimanov rayonundan başlanan layihənin həyata keçirilməsində əldə edilən müsbət nəticələr bu gün paytaxtın Nizami, Nəsimi, Yasamal, Xətai, Pirallahı, Səbail və Suraxanı rayonlarında, ümumilikdə, 8 rayonda müsbət nəticələrlə müşahidə olunur.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq rayonlarda, xüsusən də paytaxtımızda meşə massivləri, istirahət parkları salınır, mövcud yaşıllıq sahələri daha da genişləndirilir. Son illər Bakının yeni meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verilir. Qlobal ekoloji böhran fonunda Bakının qədimliyinin qorunması ilə yanaşı, müasirləşməsi və modern dünyaya uyğunlaşdırılması, burada ətraf mühitin qorunması, üzləşilən problemlərin həlli istiqamətində genişmiqyaslı tədbirlər görülür.

Əsas ekoloji problemlərdən biri olan iqlim dəyişmələrinin yaratdığı fəsadların qarşısının alınması, təsirlərinin azaldılması yönündə həyata keçirilən layihələr böyük əhəmiyyətə malikdir. Bu baxımdan, paytaxtımızda son illərdə reallaşdırılan tədbirlər təqdirəlayiqdir. Belə ki, yaşıllıqların salınması, yaşayış massivləri yaxınlığında istirahət guşələrinin yaradılması və s. abadlıq işləri təbiəti oksigenlə zənginləşdirməklə yanaşı, əhalinin səmərəli, rahat istirahətini şərtləndirir.

Dövlətimizin başçısı İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq hazırda ölkəmizin bütün güşələrində və eləcə də Bakı şəhərində yeni yaşıllıqlar, meşə massivləri, istirahət parkları və bağlar salınır, mövcud yaşıllıq sahələri daha da genişləndirilir. Bununla da Azərbaycanın parklar ölkəsi olduğu təsdiqlənir. Artıq paytaxtımızda 300-ə yaxın park, bağ və istirahət məkanı var və yenilərinin salınması, köhnələrində isə əsaslı təmir-yenidənqurma prosesi davam edir.



Bakı şəhərinə gözəllik verən belə məkanlardan biri Xətai rayonu ərazisində 43 hektar ərazidə yeni yaradılan “Gənclik” parkıdır. Bir zamanlar baxımsız ərazi olan bu sahə indi tam yeni görkəm alıb. Ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib. Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur qurulub. Burada çox sayda ağac əkilib, yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqların parkda asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb.

Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri də istifadəyə verilib, attraksion quraşdırılıb. Həmçinin müxtəlif növ idman və əyləncə sahəsi fiziki məhdudiyyətli şəxslərin ixtiyarına verilib. Burada qurulan “Ürəklər” kompozisiyası isə paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgiyə həs olunub.

Səbail rayonu ərazisindəki Mərkəzi Nəbatat Bağı da bu gün öz füsunkarlığı ilə diqqət çəkir. Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərir. 46 hektardan artıq ərazini əhatə edən bağda 247 növə aid 17 min 545 ədəd ağac, 162 növə aid 16 min 472 ədəd kol bitkisi qorunur.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə 2023-cü ildə “Mərkəzi Nəbatat Bağı” publik hüquqi şəxs kimi BŞİH-nin tabeliyinə verilib. Burada aparılan əsasli təmir-yenidənqurma işləri çərçivəsində qəzalı vəziyyətdə olan Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası üçün 5 mərtəbəli, ümumi sahəsi 3700 kvadratmetr olan yeni bina tikilib.

Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınan yeni parkda da yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib.

Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Göründüyü kimi, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyaya əsaslanaraq son illər Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində mühüm layihələr gerçəkləşdirilib. Paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb.

Dövlətimizin başçısı Bakının “yaşıl” şəhərə çevrilməsinə, ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə bütün səylərini birləşdirməsinə, ümumilikdə, yaşıllaşdırma sahəsində görülən işlərə xüsusi diqqət ayırır. COP29 kimi mötəbər tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsi də ölkəmizin qlobal istiləşmə fonunda sağlam gələcək naminə gördüyü işlərə verilən yüksək dəyərdən xəbər verir. Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması isə bu xüsusda çox önəmlidir.

Ötən illər ərzində dövlətimizin başçısının təşəbbüsü ilə paytaxt Bakı şəhərində 400-ə yaxın yeni park salınıb, ətraf qəsəbələrdə isə 65 yeni mədəniyyət və istirahət parkı istifadəyə verilib. Bununla yanaşı, 100-dən çox park əsaslı təmir olunub.

**Beləliklə, “Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir ekoloji infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi, eləcə də COP29 çərçivəsində gerçəkləşdirilən işlərə töhfə vermək baxımından xüsusi önəm daşıyır. Ən əsası isə görülən işlərin hər biri insan amilinə xidmət edir.**

*Vaqif BAYRAMOV*
*XQ*







# Azərbaycan tarixinin bir əsrlik mətbu salnaməsi

**(əvvəli qəzetin 15, 16 avqust tarixli saylarında)**

## Qəzetin və redaksiyanın strukturu

***Məhsuldar fəaliyyət üçün digər atributlarla yanaşı, qəzetin çevik və əhatəli strukturunun da böyük əhəmiyyəti var idi. Bu barədə məlumatı qəzetin öz səhifələrindən, əsasən də yubiley nömrələrində verilən tarixi məlumatdan əldə etmək mümkündür.***

Yeri gəlmişkən qeyd edək ki, "Kommunist" qəzetinin 72 illik tarixində hər 10 ildən bir qeyd edilən yubileylərə, 1000-ci, sonrakı hər mininci və 10, 20, 30 mininci nömrələrin işıq üzü görməsinə xüsusi nömrələr həsr edilmişdir. 1923-cü il dekabrın 30-da qəzetin 1000-ci, 1927-ci il mayın 5-də isə 2 mininci nömrəsi çapdan çıxmışdır. 18 səhifə və rəngli nəşr olunan bu nömrənin "İdarəmizin güzgüsü" adlanan əlavəsində qəzetin özü barədə – strukturu, redaktorları, əməkdaşları, fəhlə-kəndli müxbirləri haqqında məlumat var.

Azərbaycan SSR, ZSFSR və SSRİ rəhbərləri, "Rote fane", "Humanite", "Pravda", "İzvestiya", "Zarya vostoka və s. xarici və sovet nəşrləri "Kommunist" qəzetini təbrik etmişdilər. Yubileylə əlaqədar Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Azərbaycanın zəhmətkeş kütlələrinin maarifləndirilməsi sahəsindəki fəaliyyətinə görə qəzeti 1923-cü il dekabrın 2-də "Qırmızı əmək bayrağı" ordeni ilə təltif etmişdir. Bundan əlavə, ona hökumət adından Xalq Komissarları Sovetinin vəsaitindən 10 min rubl maddi yardım göstərilmişdir.

Bu sayda 1923-cü ilin 10 ayı ərzində alınmış və dərc olunmuş məqalələrin diaqramları, əməkdaşların və müxbirlərin və s. fotoşəkilləri də çap edilmişdir.

Qəzetin 2 mininci nömrəsi 12 səhifə çıxmışdır. Bu sayda respublikanın həyatına dair, əməkdaşların iş şəraiti ilə bağlı, eləcə də alınmış və çap olunmuş məktublar barəsində mühüm məlumatlar vardır.

Bəzən yubiley günlərində qəzetin 2 nömrəsi – səhər və axşam buraxılışları çıxmışdır. Məsələn, 1927-ci il aprelin 28-də 6 səhifəlik səhər, 4 səhifəlik isə axşam nömrələri buraxılmışdır. Həmin saylarda əsas etibarı ilə partiya-hökumət işçilərinin qəzetin fəaliyyəti barədə xatirələri çap olunmuşdur.

**1923-cü ildə qəzetin strukturu:**




**O zaman q**əzetin **11** şöbəsi **var idi: partiya, zəhmətkeşlər sütunu, maarif,** ədəbiyyat**, Sovet Azərbaycanı, bədii, həmkarlar hərəkatı, yerli informasiya, mətbuat, qızıl** əsgər **həyatı, informasiya (teleqraf).**

"İdarəmizin güzgüsü" adlı yubiley əlavəsində qəzetin əməkdaşları və müxbirləri haqqında da məlumat var. Bundan əlavə, hər il mayın 5-də – kommunist mətbuatı günündə redaksiyanın əməkdaşları və işçilərinin iş şəraiti haqqında məlumatlar dərc edilmişdir.

**1923-cü ildə redaksiyanın strukturu:**

| | |
|---|---|
| **Müdir (redaktor) müavini** | **Məmməd Səid Ordubadi** |
| **Məsul katib** | **Əhməd Triniç (Bədi)** |
| **Katibin müavini** | **Akif Kazımov** |
| **Redaksiya heyəti** | **redaktor, Məmməd Səid Ordubadi, Əhməd Triniç, Hənəfi Zeynallı** |
| **Partiya şöbəsi:**<br>**müdir**<br>**müavin**<br>**katib** | <br>**Abdulla Şərifov**<br>**Neymət Bəsir (Hacıyev)**<br>**Balaqədəş Mürşüd Səttaroğlu** |
| **Zəhmətkeşlər şöbəsi:**<br>**müdir**<br>**katib** | <br>**Məmmədqulu Əlixanov**<br>**Xudadad bəy Əzizbəyli** |
| **Qəza şöbəsi:**<br>**müdir**<br>**katib** | <br>**Hacızadə**<br>**Əliullah** |
| **Mətbuat şöbəsi:**<br>**müdir** | <br>**Əli Kərimzadə** |
| **Xarici informasiya:**<br>**müdir** | <br>**Süleyman Məlikov** |
| **Xronika şöbəsi:**<br>**müdir** | <br>**Məmmədəli Səfərov** |
| **Rəssam** | **Əzim Əzimzadə** |
| **"Qızıl qələm" əlavəsinin katibi:** | **Əliabbas Müznib** |
| **"Əmələ darülfünunu" əlavəsinin redaktoru** | **Bəhram Bəhramov** |

Zəhmətkeşlər şöbəsinin katibi olan X.Əzizbəyli həm də tərcüməçi kimi işləyirdi. O, 1928-ci ildə Ruhulla Axundovun redaktəsi ilə nəşr olunmuş "Rusca-türkcə lüğət"in tərtibçilərindən biri olmuşdur. X.Əzizbəyli bircildlik "Azərbaycanca-rusca lüğət"in də tərtibçisidir.

Qəzetdə tərcüməçi kimi Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Seyid Hüseyn (Sadıqzadə), Seyid Cəfər Cavadzadə (Pişəvəri), eləcə də digər əməkdaşlar – Xəlil İbrahim, A.Ağakişiyev, Bağır Hacızadə, Əhməd Hacınski, A.Dadaşov, Y.Yusifzadə, Əliağa Əlizadə, M.H.Mirmövsümov, Şövkət Məmmədov, Ə.P.Hüseynzadə, T.Məlikov, Hacı Səlim Səyyah (Qasımzadə), Fərhad Ağazadə, Qədir Heydərov, Əziz Nuri, Musa Şəmsəddinski, Əsəd Tahirov, Sergey İnqulov və b. da çalışmışdır.

Yuxarıda verilmiş natamam siyahıdan göründüyü kimi, qəzetdə tanınmış jurnalistlər, yazıçılar, şairlər çalışmışdr. Qəzetlə əməkdaşlıq edən jurnalist və publisistləri də nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, Azərbaycan ədəbiyyatının, yaradıcı ziyalıların ən yaxşı və tanınmış xadimləri hər cür təqiblərə və sıxışdırmalara baxmayaraq bu qəzetin ətrafında cəmləşərək, onu Cənubi Qafqazın ən yaxşı mətbu məşrinə çevirə bilmişdilər.

1924-cü ildə Tiflisdə Cənubi Qafqaz mətbuatının sərgisi keçirildi və "Kommunist" qəzeti ən yaxşı təmsil olunmuş qəzet kimi fərqləndirildi. Bununla əlaqədar, "Zarya vostoka" qəzeti 1924-cü il mayın 7-də yazırdı ki, "indi türkcə "Kommunist" qəzeti SSRİ-nin ən yaxşı qəzetlərindən biridir".

Qəzetlə əməkdaşlıq edən dövlət xadimləri və publisistlərdən Nəriman Nərimanov, Qəzənfər Musabəyov, Həmid Sultanov, Tağı Şahbazi (Simurğ), Müseyib Şahbazov, Əliəkbər Heydərli, Zinətulla Nuşirəvanov, Əliağa Vahid, Hacıbaba Nəzərli, Əli Nazim, Cahangir Nağıyev, Mahmud Xanbudaqov, Əyyub Xanbudaqov, Mustafa Quliyev, Əhməd Rəcəbli, Rzaqulu Nəcəfov, Ənvər Qasımzadə, Murtuza Nağıyev və b. adlarını çəkmək olar. Azərbaycan ziyalılarının görkəmli nümayəndələri – Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Salman Mümtaz, Ömər Faiq Nemanzadə, Əliabbas Müznib həmişə təqiblərə məruz qalsalar da, "Kommunist" qəzeti ilə əməkdaşlıq edirdilər. Həbib Cəbiyev riskə gedərək onlarla əməkdaş əlaqə saxlayır və vaxtaşırı yazılarını dərc edirdi.

Qəzetdə çalışan işçilər arasında Məmməd Səid Ordubadiyə bərabəri yox idi. Gözəl yazıçı, tarixi romanlar müəllifi və şair, eyni zamanda, Azərbaycanın ən yaxşı publisistlərindən biri idi. "Yeni yol" qəzetinə redaktor təyin edilənədək (1922) Ordubadi hər gün müxtəlif mövzularda yazılmış bir neçə məqalə ilə – həm nəsr, həm də nəzmlə qəzetdə çıxış edirdi. M.S.Ordubadi digər qəzet və jurnallarda da tez-tez çap olunurdu. Amma təəssüf ki, xalq arasında o, əsasən, yazıçı kimi tanınır, jurnalistlik fəaliyyəti isə yalnız mütəxəssislərə – jurnalistlərə, filoloqlara bəllidir. Bu, onunla bağlıdır ki, həmin illərdə mətbuatımız indiki nəslin bilmədiyi ərəb, sonralar isə orta nəslin pis bildiyi latın əlifbası ilə nəşr olunurdu.

M.S.Ordubadi yazdığı baş məqalələrdə və felyetonlarda köhnəliyin qalıqlarına və cəhalətə qarşı mübarizə aparır, günün ən vacib məsələləri üzrə yazılar dərc etdirirdi. Onun iş günü səhər saat 8-dən axşam saat 8-ə qədər idi. Özünün 1923-cü il oktyabrın əvvəllərində AK(b)P BK-ya göndərdiyi məktublarının birində xahiş edirdi ki, iş günü 12 saat olmaqla redaksiyada saxlasınlar, əlavə kənar işlərdən isə azad etsinlər.

Onun yazdığı baş məqalələr, bir qayda olaraq, təxəllüssüz – Məmməd Səid Ordubadi, Məmməd Səid, M.S.Ordubadi, Ordubadi, M.S. imzaları ilə, şerləri, mənzum və nəsrlə olan "Xırda felyeton"ları, "Xırım-xırda" rubrikasındakı felyetonları "Hərdəmxəyal", "Xırdavatçı", "Feljetonçu" təxəllüsləri ilə çap olunurdu. Sonralar "Yeni yol" qəzetində redaktor işləyən M.S.Ordubadi, sözsüz ki, türk dilləri arasında ən mükəmməli sayılan Azərbaycan dilinin mətbuat üslubunun, milli orfoqrafiyamızın formalaşmasında mühüm rol oynamışdır.

Redaksiyanın məsul katibinin müavini Akif Kazım da yaradıcı əməkdaşlardan idi. O, əsasən teatr və mədəniyyət, incəsənət və fəhlə-kəndli müxbirləri haqqında yazılar dərc etdirirdi.

Əli Kərimov mətbuat şöbəsinin müdiri idi, respublikada mətbuatın durumu haqqında yazır, hər gün xarici (burjua) mətbuatını "Ayn Kaf" imzası ilə şərh edirdi. Ə.Kərimov 1928-ci ilin sonunda Azərnəşrin direktoru təyin edilir və bu dövrdən etibarən qəzet səhifələrində xarici (burjua) mətbuatın şərhi rubrikası gözə dəymir.

Qəzetin tanınmış əməkdaşlarından biri də müxtəlif vəzifələrdə çalışmış Süleyman Məlikov idi. O, əsasən respublika və qəza mətbuatının durumu haqqında yazır, eləcə də qəzetin xüsusi müxbiri kimi qəzalara yollanaraq oradan partiya-həmkarlar, sosial-məişət və iqtisadi mövzularda məqalələr göndərirdi. Beynəlxalq və partiya mövzularında məqalələrini "Suleyman Məlikov", "S.Məlikov", qalan yazılarını isə "Əbu-l-hövl", "Qəmişqulu", "Damğa", "Kənardan baxan", "D.Oğlu", "S.M.Oğlu", "S.Məlikzadə", "M-zadə", "M-zadə S.", "S." və s. təxəllüsləri ilə çap etdirirdi.

Abdulla Şərifov partiya şöbəsinin müdiri idi. Onun adı bir müddət "Kommunist" qəzetində işləmiş Əziz Şərifin imzaları ilə tez-tez qarışıq salınır. Belə qarışıqlıq həqiqətən də mövcuddur, belə ki, onların hər ikisinin eyni soyadı və adlarının ilk hərflərinin eyniliyi buna səbəbdir. Bundan əlavə, onların hər ikisi yazılarında eyni dərəcədə kəskin idi, buna görə də onların imzalarını fərqləndirmək çətindir.

Balaqədəş Mürşüd Səttaroğlu partiya şöbəsinin katibi idi, redaksiyanın tapşırıqlarını can-başla yerinə yetirirdi. O, mənzum felyetonlar yazır və onları B.Mürşüd Səttaroğlu, M.Səttaroğlu, B.Mürşüd, Mürşüd, Balaqədəş, Təəssübkeş və s. təxəllüsləri ilə imzalayırdı.

Qəzetin ən yaxşı felyetonçularından biri Əliabbas Müznib Mütəllibzadə idi. O, əsərlərini və məqalələrini Ə.A.Müznib, "Babai-əmir", B.Ə., "Mürtəd" imzaları ilə dərc etdirirdi. Sonuncu təxəllüsdən Əliağa Vahid də istifadə edirdi. O, yazılarını "Hacı Əqrəb" təxəllüsü ilə də imzalayırdı.

Ədəbi əməkdaşlar sayılan tərcüməçilər də çox məhsuldar işləyirdilər. Bunlar tanınmış yazıçılar Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Seyid Hüseyn, Xəlil İbrahim və başqalarıdır. Cəfər Cabbarlı əsasən Cim, Cim-Cim, C, C.C, C.Cabbarzadə, C.Cabbarlı və s. imzalardan istifadə edirdi. C.C. imzasından bəzi hallarda Cəfər Cavadlı da istifadə etmişdir. Seyid Hüseyn Sadıqzadə yazılarını "Hüseyn Sadıq" təxəllüsü ilə imzalayırdı. Xəlil İbrahim X., X.İ, İ.X, Xəlil, Xəlil Əlif, Xəlil Əlif-Mim, Əlif.X. və s. təxəllüslərdən istifadə edirdi.

## Kadr hazırlığı

Əməkdaşlar və müxbirlər bilavasitə Azərbaycan K(b)P MK-nın rəhbərliyi altında hazırlıq keçirdilər. Bunun üçün MK-nın qərarına əsasən, 1920-ci ilin mayından ölkədə olan bütün jurnalistlərin və mətbəə işçilərinin qeydiyyatına başlanıldı. Onların təkrar hazırlıq keçmələri üçün isə qısamüddətli kurslar və dərnəklər təşkil edildi. Belə dərnəklərdən biri "Kommunist" qəzetinin nəzdində təşkil olunmuşdu. Bu dərnəyə, başlıca olaraq mətbuata bilavasitə aidiyyəti olmayan xırda alverçilər və s. yazılmışdı və sonralar aydınlaşdı ki, onlar çörək və kişmiş payı almaq məqsədi ilə dərnəyə yazılıblar. Yeni iqtisadi siyasətə keçilən kimi onlar kursları yarımçıq qoyub getdilər.

Respublika miqyasında 3 aylıq kurslar da təşkil olunmuşdu və onların dinləyiciləri digər məsələlərlə yanaşı publisistika, informasiya, kütlə ilə ünsiyyət formaları, qəzet təsərrüfatı, qəzet buraxılış texnikası, stenoqrafiya və s. əsaslarını öyrənirdilər. Tanınmış jurnalistlər, publisistlər, yazıçılar və b. dinləyicilərə mühazirə oxuyurdular. Bunların arasında Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Əli Terequlov, Ağababa Yusifzadə, Mahmud bəy Mahmudbəyov, Xəlil İbrahim, ər-arvad Xocamirovlar, ər-arvad Nuşirəvanovlar və b. var idi.

Dinləyicilərin heç də hamısı çətinliklərə tab gətirmirdi. Yalnız entuziastlar axıradək dözürdülər. Bu kursların dinləyicilərindən Balaqədəş Mürşüd Səttaroğlu, Əbdürrəhman dayı, Mir Cəlal Paşayev sonralar "Kommunist" qəzetində işləməyə başladılar. Şəfiqə Əfəndizadə isə qəzetlə əməkdaşlıq etdi.

Publisistika yaradıcılığı yalnız 1923-cü ildə hiss olunacaq səviyyədə canlanmağa başladı. Hər bir qəzetin ətrafında müəyyən qrup fəhlə və kəndli müxbirləri cəmləşirdi. Bu toplumlarda 2 cərəyan diqqəti cəlb edirdi: bir tərəfdən, müxbirlərin təbii və kortəbii axını, digər tərəfdən isə rəsmi fəhlə-kəndli müxbirliyi idi.

Digər qəzetlərdən fərqli olaraq yalnız "Kommunist" qəzeti fəhlə-kəndli müxbirləri üçün kurslar təşkil etmiş, onlarla müşavirələr keçirmişdir. Qəzet öz fəhlə və kəndli müxbirlərində yaradıcılıq vərdişlərinin tərbiyə olunması üçün məşğələlər aparmışdır. Bunun nəticəsində həmin fəhlə-kəndli müxbirlərinin bir qismi hətəkatın dərnək rəhbərlərinə çevrilmişlər. Bütövlükdə, fəhlə və kəndli müxbirləri hərəkatı 1924-cü ildən daha geniş yayılmağa başlamışdır.

## Yazıların əsas mövzuları

Dərc olunan materiallar təsnif edilir və respublika həyatının və partiya, dövlət və hökumət orqanlarının müxtəlif aspektlərini əks etdirən mövzular tərtibat baxımından digər yazılardan fərqləndirilirdi. Başqa qəzetlərdə olduğu kimi, "Kommunist" qəzetində də özünəməxsus rubrika və şöbələr sistemi yaradılmışdı ki, bu da həmin qəzetin başlıca vəzifələrinə daha dolğun cavab verirdi.

Hər bir rubrika da öz növbəsində bu və ya digər istiqaməti, iş sahəsini, problemin işıqlandırılmasını fərqləndirir və daha da ciddi nəzarət altına götürərək oxucunun diqqətini sistemli olaraq cəmləşdirirdi. Bu forma təkcə ayrı-ayrı hadisələrin, ideyaların, məsələlərin praktik həlli yollarının axtarılması əlaqələrini əks etdirmir, eyni zamanda, kollektiv təfəkkür və fəaliyyətin sistemliliyi və kompleksliyini geniş mənada müəyyən edirdi. Rubrikaların səciyyəsi müəyyən mövzunu lazımi janrlardan istifadə olunması yolu ilə ahəngdar aparmağa imkan verirdi. Bu həm də rubrikanı aparan konkret müəllifləri cəlb etməyə imkan yaradırdı. Zaman keçdikcə problemlər, mövzular, müəlliflər dəyişir, rubrikalar isə bir çox hallarda varisliyin rəmzi və daşıyıcısı kimi qalırdı.

"Kommunist" qəzetinin bir sıra daimi rubrikaları var idi: "Sovet Azərbaycanında", "Partiya həyatı", "Qəzalarda", "Kəndə doğru", "Pambıq cəbhəsində", "Neft cəbhəsində", "Həmkarlar hərəkatı", "Zaqafqasiya Federasyonunda", "Sovet Rusiyasında", "Şərq ölkələrində", "Dünya işçi hərəkatı", "Mətbuat", "Müxbirlərimizə", "Maarif", "Xırda felyeton", "Kəndli felyetonu", "Fəhlə felyetonu", "Teatr və musiqi", "Yeni yolla" (yeni əlifba haqqında), "Biblioqrafiya" və s.

Qəzet vaxtaşırı müəyyən konkret mövzu və istiqaməti olan əlavələr də nəşr edirdi. Bunlar aşağıdakılardır: "Fəhlə-kəndli qadın səhifəsi" (1921), "Əmələ darülfünunu", "Dilimizin islahı" (1922-1923), "Partiya həyatı", "Qız qalası", "Müxbirlik işi", "Qızıl qələm", "Məktəb" (1924), "Hökumətin əmr və qərardadları" (1925-1927), "Savadlı qızıl əsgər həyatı" (1924-1926), "Ədəbiyyat səhifəsi" (1924-1928), "Fəhlə-kəndli müfəttişliyi səhifəsi" (1926-1928), "Azərbaycan fəhlə-kəndli müxbirliyi" (1927-1928) və s.

Qəzet mətnlərdə cüzi dəyişikliklər etməklə 2 buraxılışla çıxırdı. Oxuyuculara yuxarıda sadalanan əlavə və səhifələrdən başqa, qəzetin pulsuz əlavələri – Lenin və Stalinin portretləri, bloknotlar, Şərq, Avropa, Asiya, Cənubi və Şimali Amerika, Cənubi Qafqaz və Sovet respublikalarının xəritələri, aylıq və illik təqvimlər, "Molla Pənah Vaqif", "Nişat Şirvani", "Məhəmməd Hüseyn xan Müştaq", "Qövsi", "Kərbəlayı İlahi Arif", "Qasım bəy Zakir", "Mirzə Şəfi Vazeh" və b. şəkilli almanaxlar verilirdi.






## Maddi baza, həcm, tiraj

XX əsrin 20-ci illərində məvaciblər dərəcələr üzrə verilirdi. Az məvacib alanlara, eləcə də məktəblərə və kollektiv abunəçilərə qəzet böyük güzəştlər nəzərdə tuturdu. Məsələn, 6-9-cu dərəcələr üzrə maaş alanlar abunə üçün ildə 29 rubl 75 qəpik, 15-17 dərəcəlilər 3 ödənişlə 50 rubl ödəməli idilər. Kəndlilər üçün abunə 3-cü dərəcə (yəni aşağı) üzrə müəyyənləşdirilirdi. Bundan əlavə, kənd təsərrüfatı üzrə xüsusi ədəbiyyat abunəçilərə pulsuz paylanılırdı. Təkcə 1925-1927-ci illərdə 12 adda belə kitabça çap olunmuşdu. Bunlardan aqronom-alim Əhməd Rəcəblinin "Gübrələr", "Əkin torpağı", V.Nikolskinin "Peyinin hazırlanması", A.P. adlı müəllifin "Pətəkləri necə saxlamalı", A.M. adlı müəllifin "İribuynuzlu heyvanlarda xəstəliklər" və s. kitabçaları pulsuz paylanmışdı.

Dotasiyalar ayrılan dövrlərdə qəzet abunəçilərə maya dəyərindən 2 dəfə ucuz qiymətə satılırdı. Belə ki, bir aylıq komplektin əlavələrlə birlikdə qiyməti 2 rubl 86 qəpiyə olduğu halda, hətta ən yüksək maaş alanlar da 1 rubl 25 qəpikdən artıq ödəmirdilər. Az maaş alanlar isə daha cüzi xərclə qəzet ala bilirdilər. Redaksiyanın smeta kəsirləri isə müxtəlif dövlət orqanları, müəssisə və təşkilatlar tərəfindən ödənilirdi.

Fəhlə-kəndli müxbirləri abunə kampaniyalarında fəal iştirak edirdilər. Onların fəaliyyətini tənzimləyən qəzet qarşılarında konkret vəzifələr qoyur və hamısını yarışa çağırırdı. Yarışların nəticələri isə qəzetin səhifələrində işıqlandırılırdı. Qəzet yuxarı orqanlar, təşkilatlar, müəssisələr qarşısında məsələ qaldırır, abunə kampaniyasına yardım göstərmələrini xahiş edirdi.

M.S.Ordubadinin imzası ilə dərc olunan "Qəzetimizin tirajı və oxucuları" məqaləsində AzMİK, Azərittifaq, Ərzaq və Səhiyyə komissarlıqları, Azərpambıq idarəsi kimi yuxarı orqan və təşkilatlara müraciətlə xahiş olnurdu ki, aldıqları məhdud saylı qəzet nüsxələri ilə kifayətlənməyib, daha artıq nüsxəyə abunə olsunlar və artıq nüsxələri qəza və dairə müəssisə və təşkilatlarına yardım kimi göndərməklə həm qəzetin kəndli kütlələri arasında yayılmasına, həm də abunənin təşkilinə kömək etsinlər. Qəzet öz israrlığı sayəsində bu istəyinə nail olurdu. Əgər 1923-cü ilin noyabrında qəzetin 4 min 50 nüsxə tirajından 900-ü qəzalarda yayılırdısa, 1925-ci ilin dekabrında 8 min 800 nüsxənin 4 min 310 nüsxəsi, təxminən, yarısı qəzalara göndərilirdi. 1928-ci ildə isə tirajın dörddə üçü qəzaların payına düşürdü.

Yeri gəlmişkən, həcm və tiraj haqqında. Əgər 1920-ci ildə qəzet kiçik həcmdə 2 səhifədə çap edilirdisə, 1922-ci ildə həcm kəskin şəkildə artıb 6, 8, 12, yubiley və bayram günlərində isə hətta 18–24 səhifə olurdu. Qəzetin formatı da böyümüşdü – indiki "Xalq qəzeti"ndən 5 sm uzun və 2 sm enli idi. Bu formatda qəzet 1926-cı il iyulun 9-a kimi nəşr olunmuşdur.

Təmiz minimal yığım 4 min 320 vahidə bərabər idi. Birdəfəlik tiraj orta hesabla 1920-ci ildə 9 min nüsxə (1921-ci il fevralın 13-dək qəzetin tirajı dövlət müəssisələrinin hesabına pulsuz paylanılırdı), 1921-ci ildə 3 min 500 nüsxə (1921-ci il fevralın 15-dən qəzetin pullu yayıma keçməsi ilə əlaqədar olaraq tiraj kəskin şəkildə azaldı), 1922-ci ildə 5 min, 1923-cü ildə 5 min 500, 1924-cü ildə 6 min 500, 1925-ci ildə 9 min 500 nüsxəyə bərabər idi. 1925-ci il iyunun 8-dən etibarən qəzetin sonuncu səhifəsində tirajın miqdarı barədə məlumatın verilməsinin dayandırılması və yalnız ötəri hallarda bu və ya digər səbəbdən yarımçıq məlumat verilməsi qəzetin tirajı barədə təsəvvürləri məhdudlaşdırır. Yalnız 1927-ci ildə nəşr olunmuş yubiley nömrəsindəki məqalələrin birində tirajın 10 min nüsxəyə çatması haqda məlumat verilmişdi.

**(ardı var)**

***Elmar MƏHƏRRƏMOV,***
***tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi***

# Azərbaycan turizmi: qapımız qonaqlara daha geniş açılmalıdır



**Yanvar-iyun aylarında ölkəmizə 1 milyon 231 min 104 nəfər qonaq gəlib. Bu, ötənilki göstəricilərlə müqayisədə 34 faiz artım deməkdir.**

Dövlət Turizm Agentliyindən XQ-yə verilən məlumatda bildirilir ki, ilin əvvəlindən ölkəmizə ən çox turist Rusiyadan gəlib. Növbəti yerlərdə isə Türkiyə, Hindistan, İran və Gürcüstan qərarlaşır. Ümumilikdə, bu ölkələrdən Azərbaycana gələn turistlərin sayı 850 min 288 nəfər təşkil edir. Rusiyadan 359 min 938, Türkiyədən 213 min 617, Hindistandan 118 min 985, İrandan 106 min 833, Gürcüstandan isə 50 min 915 turist qəbul edilib.

Bundan başqa, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Pakistan, Oman, BƏƏ, Çin, İsrail, Özbəkistan, Küveyt və Ukrayna vətəndaşları da turizm imkanlarımızla maraqlanan səyyahətçilər sırasında yer alırlar. 6 ayda Azərbaycana səyahətçi axını 15 ölkəni əhatə edir. Qonaqların gəliş ünvanları isə belədir: Qərbi Avropa 3,49 faiz, Şərqi Avropa 3,62 faiz, Mərkəzi Asiya 6,3 faiz, Cənubi Asiya 11, 32 faiz, Yaxın Şərq 18, 07 faiz.

Statistik mənzərədən aydın olur ki, Azərbaycanın mövcud turizm potensialı daha çox Yaxın Şərq, Cənubi və Mərkəzi Asiya ölkələrindən olan səyahətçiləri özünə cəlb edir.

Bəs ölkəmizin zəngin turizm marşurutlarına digər ölkələrin marağını necə artıra bilərik? Gəlmə turizmini necə inkişaf etdirmək olar?

XQ-nin bu mövzuda sorğusunu şərh edən **turizm üzrə ekspert Ruslan Quliyev** bildirdi ki, bu gün turistlərin gəlişi baxımından üstünlük təşkil edən regionlarla sıx əlaqə saxlayırıq. Bu sahədə uyğun inkişafa nail olmaq üçün bir çox məsələlər nəzərdən keçirilməlidir:



– Biz hələ də pandemiyadan əvvəlki 2013-cü ilin nəticələrini yeniləyə bilmirik. Bunun da bir neçə səbəbi var. Viza məsələlərinin mərhələli şəkildə həlli, bir sıra istiqamətlərdə aviauçuşların artırılması bu işə mənfi təsiri göstərir. Daxili bazarda da turizm imkanlarının təklif olunması Azərbaycan turizmini daha maraqlı edə bilər. Tematik turların təbliğ edilməsi də önəmlidir. Nəzərdə tutulan regionlardan ölkəyə səyahətçi sayı ilin sonunadək arta bilər. Bunun üçün müvafiq kampaniyalar həyata keçirilməlidir. Hava yollarında qrup qiymətlərində endirimlərə nail olmaq lazımdır. Müxtəlif çeşidli proqramlarla qatıldığımız sərgilərdə sistemli reklam kampaniyaları aparılmalıdır. Azərbaycanın destinasiyasını rəqabətqabiliyyətli bazara çevirmək üçün turpaketin maya dəyərinə təsir edən bəzi amillər də nəzərə alınmalıdır. Yəni turizm bazarında canlanma yaratmaq üçün sistemli fəaliyyət və turoperatorların dəstəklənməsi zəruridir.

Turizm üzrə digər **ekspert Samir Dübəndi** də qeyd etdi ki, gəlmə turizm statistikasında Asiya və Yaxın Şərq ölkələri Avropa ölkələrini üstələyir:

– Ötən illərdə dövlət qurumları gəlmə turizmində bir neçə proritet destinasiyaları seçməklə, həmin ölkələrdə informasiya və marketinq işlərini nümayəndə şirkətlərə tapşırmışdı. Bu ölkələr sırasında Avropa ölkələri də var. Avropanın ölkəmizə qarşı ikili standartlar və ədalətsizlik nümayiş etdirdiyi göz qabağındadır, lakin turist mübadiləsini Avropa destinasiyaları ilə artırmaq şansımız var.

Turizm xarici amillərə məruz qalan, həssas iqtisadi fəaliyyət sahəsidir. Siyasi, iqtisadi, hərbi amillər turizmin istiqamətlərini dəyişir, bəzi hallarda onu, hətta məhv edə bilir. Qitədə Azərbaycana dost ölkələr kifayət qədərdir. İlk növbədə, bu ölkələrlə daha sıx əməkdaşlıq etməyə zərurət görürəm. Digər tərəfdən ölkə turizminə rəhbərlik edən şəxslər sırasında avropalı mütəxəssislər də var. Onlar əlaqələrin möhkəmləndirilməsi, genişlənməsi yollarını daha yaxşı bilirlər. Bu potensialdan biz daha səmərəli istifadə etməliyik.

ABŞ və Latın Amerikası ölkələri ilə turist mübadiləsinin artırılmasına daha diqqətlə yanaşmalıyıq. Gəlmə turizmin coğrafiyası nə qədər geniş olarsa, biz beynəlxalq aləmdə bir o qədər tanınacağıq. Ölkəmizin tarixini, mədəniyyətini,



adət-ənənələrini, milli dəyərlərini və irsini məhz turizm vasitəsilə tanıtmağa çalışmalıyıq. Hazırda ÜDM-də turizmin payı arzuolunandan aşağıdır.

Ekspert əlavə etdi ki, turistlərin sayı ilə yanaşı, onların ölkədə orta qalma müddəti, adambaşına xərclədikləri vəsaitin və istifadə etdikləri xidmətlərin çeşidi də əsas götürülməlidir:

– Yüksək ekoloji mədəniyyətə, sosial duruma, iqtisadi imkanlara sahib olan ölkələrin vətəndaşları daha maraqlı və "faydalı" turist olurlar. Onlar ölkəmizin təbiəti, tarixi, mədəniyyəti, adət-ənənələri ilə daha yaxından tanış olur, buna görə əlavə xidmətlər sifariş edirlər. Belə ölkələrin turistləri əldə etdikləri xidmətlərə daha tələbkar və məsuliyyətlə yanaşır, yüksək servis və komfort tələb edirlər.

Təşviqat məsələsinə gəlincə, biz qonşu turizm bazarlarında tələb olunan səviyyədə, mütəşəkkil formada işlər aparmırıq. Qonşularla viza yoxdur, nəqliyyat daha əlçatandır, dil baryeri yoxdur. Lənkəran Meksikanın Monterrey şəhəri, Bakı Fransanın Bordo şəhəri ilə qardaşlaşıb. Bu konsepti uğurla davam etdirə bilərik.

Ekspert rəylərindən görünür ki, Azərbaycanın turizm imkanlarını arzuolunan səviyyəyə çatdırmaq, ölkəmizi daha maraqlı səfər ünvanına çevirmək üçün imkan və vasitələr diqqətdə saxlanılmalıdır. Təbliğat işini düzgün aparmaq, uğurlu ölkələrin təcrübəsindən yararlanmaq, forma və məzmun baxımından xüsusi yanaşmalara keçmək Azərbaycan turizimini inkişaf etdirəcək amillər sırasındadır.

***Ceyhun ALIŞLI***
***XQ***

Qardaşlıq meridianında

# Türkiyədə Cahangir Novruzovun yubiley mərasimi

**Avqustun 16-da TÜRKSOY-un Ankaradakı binasında görkəmli teatr və kino aktyoru, rejissor, Azərbaycanın Əməkdar incəsənət xadimi Cahangir Novruzovun anadan olmasının 70 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilib.**



TÜRKSOY-un Baş katibi Sultan Raev çıxış edərək Cahangir Novruzovun Azərbaycanda və Türk dünyasında teatr yaradıcılığının inkişafına töhfəsini yüksək qiymətləndirib. O qeyd edib ki, onun iştirak etdiyi tamaşalar bu gün də Azərbaycanın hüdudlarından kənarda böyük maraqla qarşılanır. Baş katib aktyorun Türk dünyasında teatr sənətinin inkişafına verdiyi töhfəni vurğulayaraq deyib: "Son 30 ildə Cahangir Novruzov Türkiyədə fəaliyyət göstərib, qardaş ölkənin mədəniyyət və incəsənət sahələri üçün peşəkar kadrlar hazırlayır. Türk mədəniyyətinin inkişafına verdiyi töhfəyə görə ona minnətdarıq".

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov yubiley tədbirinin təşkilində göstərdiyi dəstəyə görə TÜRKSOY-a təşəkkür edib. Cahangir Novruzovu bütün Türk dünyası mədəniyyətinin görkəmli nümayəndəsi kimi xarakterizə edən diplomat xatırladıb ki, aktyor yaradıcı insanların ailəsində doğulub və adlı-sanlı valideynlərinin işini davam etdirib. O əlavə edib: "Cahangir Novruzov çoxlu dövlət mükafatları ilə təltif olunub, amma onun ən böyük mükafatı Azərbaycan xalqının sevgisi və diqqətidir".

Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev Cahangir Novruzovun mədəniyyətimizin xaricdəki təbliğində xidmətlərini vurğulayıb.

TÜRKSOY yanında daimi nümayəndəmiz Elçin Qafarlı iştirakçıları Azərbaycan Mədəniyyət Nazirliyi kollektivinin təbrik məktubunun mətni ilə tanış edib.

Tədbirdə iki qardaş ölkənin diplomatları, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.




Adanada Çukurova Universitetinin Dövlət Konservatoriyasında dərs deyən professor C.Novruzov onun yaradıcılığına göstərdikləri diqqətə görə təşkilatçılara və tədbir iştirakçılarına təşəkkürünü bildirib.

***XQ***

# Qara Qarayevin Yaponiyada əsərləri nəşr olunub

**Yaponiyada görkəmli bəstəkar Qara Qarayevin not kitablarının çapı layihəsi çərçivəsində yeni kitab işıq üzü görüb.**

Bəstəkarın fortepiano üçün əsərləri yerli "Zen-On" musiqi nəşriyyatı tərəfindən nəşr olunub. Kitaba bəstəkarın yaratdığı uşaqlar üçün fortepiano miniatürləri və digər əsərləri daxil edilib. Əsərlərə aid metodik tövsiyələr pianoçu Gülnarə Səfərova tərəfindən işlənilib, not kitabına yapon və ingilis dillərində daxil edilib. İlk dəfədir ki, Azərbaycan musiqiçisinin metodik tövsiyələri Yaponiyada nəşr edilmiş not kitabında verilib.

Qeyd edək ki, 2023-cü ildə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Qara Qarayevin "Yeddi gözəl" və "Don Kixot" baletlərinin partiturasının daxil edildiyi iki not kitabı yapon musiqisevərlərinə təqdim edilib.

**XQ**






# Mirzə Şəfi Vazeh özbək vikipediyasında

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə klassik ədəbiyyatımızın tanınmış nümayəndəsi, maarifpərvər ziyalı, şair Mirzə Şəfi Vazeh haqqında Vikipediya Beynəlxalq Elektron Ensiklopediyasında özbək dilində "Mirzo Shafi Vazeh" adlı bölmə istifadəyə verilib.**

Azərbaycan Mədəniyyət Mərkəzinin vikipediya heyətinin tərtib etdiyi 12 bölmədə şairin həyatı, yaradıcılığı, Azərbaycan ədəbiyyatına və milli məfkurəyə verdiyi töhfələr, maarifçilik fəaliyyəti və s. məlumatlar yer alıb.

Geniş məqalədə qeyd olunur ki, Azərbaycan şairi və mütəfəkkiri, xəttat, maarifçi və pedaqoqu Mirzə Şəfi Vazeh həm Azərbaycan, həm də fars dillərində şeirlər yazıb, poeziyamızın ənənələrini inkişaf etdirib.

Bundan əlavə, maarifçilik və pedaqoji




fəaliyyətlə də məşğul olan Mirzə Şəfi Tiflisdə Azərbaycan və fars dillərindən dərs deyib, Azərbaycanın gələcəyi üçün ziyalılar yetişdirib. Mirzə Şəfi rus pedaqoqu İvan Qriqoryevlə birlikdə Azərbaycan poeziyasının ilk ədəbiyyat müntəxəbatını və Tiflis gimnaziyası üçün "Tatar–rus lüğətini" tərtib edib.

Bölmədə bildirilir ki, Mirzə Şəfi dövrünün tanınmış maarifpərvər ziyalıları, şair və ədibləri ilə sıx əlaqə saxlayıb. Onun yaradıcılığı təkcə Azərbaycanda deyil, Avropada da tanınıb, əsərləri rus, alman dillərinə tərcümə edilərək çap olunub, şeirlərinə Avropa bəstəkarları musiqi bəstələyiblər.

Bölmə ilə https://uz.wikipedia.org/wiki/Mirzo_Shafi_Vozeh linkində tanış olmaq mümkündür.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Mərkəzi Asiya müxbiri***
**Daşkənd**

# Şəhid analarının Xudat görüşü

**Vətən müharibəsində qəhrəmanlıqla həlak olmuş sumqayıtlı şəhidlərin valideynləri Xaçmaz rayonunun Xudat şəhərində yaşayan Fərəcovlar ailəsini ziyarət edib, bu ailənin övladı, şəhid Fəxrəddin Fərəcovun yeni yaradılan muzeyi ilə tanış olublar.**



Qonaqlar şəhidin nəfis şəkildə hazırlanmış iri portretini muzeyə təqdim ediblər. Kiçik çavuş Fəxrəddinin atası Feyzulla və anası Bahar xanım ziyarətçilərə igid Vətən oğlunun həyat hekayəsini danışıb, şərəfli mübarizə yolundan söz açıblar. Şəhidin bacısı – Sumqayıtda yaşayan Rübabə xanım qardaşını yad etməyə gələn şəhid analarına, görüşün təşəbbüskarı şair-yazar Esmira Günəşə ailə adından təşəkkürünü bildirib. O qeyd edib ki, Fəxrəddin Sumqayıta qəlbən bağlı idi və hər dəfə qonaq gələndə mütləq dostları, hərbçi yoldaşları ilə görüşər, şəhid olmuş silahdaşlarının ailələrinə baş çəkər, bacardığı qədər onlara dəstək olmağa çalışardı.

Qeyd edilib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən haqq savaşında göstərdiyi igidliyə görə kəşfiyyatçı Fəxrəddin Fərəcov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", eləcə də Füzulinin, Qubadlının, Cəbrayılın və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub. O, cəbhəyə gedəndə Ümid adlı bir oğlu vardı, 2021-ci ilin aprelində doğulan 2-ci oğluna isə şəhidin adı qoyulub.

Daha sonra qonaqlar Vətən müharibəsi şəhidi İlqar Hüseynlinin ailəsi ilə də görüşüb və Vətən oğullarınının məzarlarını ziyarət ediblər.

***Ə.ƏLİYEV***
***XQ***

# İnvestisiya qiymətli kağızların emitenti olan Teymur Əhmədov adına "AzNar" Qapalı Səhmdar Cəmiyyətinin 2023-cü il üzrə illik hesabatı

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi; | Teymur Əhmədov adına "AzNar" Qapalı Səhmdar Cəmiyyəti.<br>Qısaldılmış adı: "AzNar" QSC.<br>VÖEN: 6000083631.<br>Qeydiyyat tarixi: 09.10.2006. |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer; | AZ 2300, Azərbaycan, Göyçay şəhəri, Natəvan küçəsi 120. |
| 3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması və həmin hüquqi şəxslərin adları; | Hesabat ili ərzində emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər baş verməmişdir. |
| 4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adları, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəlikləri mövcud deyil. |
| 5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti mövcud deyil. |
| 6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupunun bir hissəsi deyil. |
| 7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | Kənd təsərrüfatı və istehsal. |
| 8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Emitent hər hansı bir lisenziya və ya icazəyə malik deyildir. |
| 9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Meyvə, giləmeyvə, tərəvəz və digər mədəni və yabanı bitki məhsulları şirələrinin istehsalı, tədarükü, emalı, saxlanılması və satışı. Spirtsiz və spirtli içkilərin istehsalı, kənd təsərrüfatı, istehsal-texniki, mədəni-məişət və digər təyinatlı məhsulların, malların və əmtəələrin istehsalı, tədarükü, emalı və satışı; |
| 10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | Cəmi 130 işçi. |
| 11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adları, soyadları, atalarının adları; | Cəmiyyətin aşağıdakı idarəetmə orqanları vardır:<br>1. Səhmdarların ümumi yığıncağı;<br>2. İcra orqanı (baş direktor): Abbasov Bəylər Rəşid oğlu. |
| 12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | İyirmi altı fiziki şəxs, bir yerli hüquqi şəxs |
| 13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | Fiziki şəxs 99,9917%, 74964929 ədəd adi adlı sənədsiz səhm, 149.929.858 manat;<br>Digər fiziki şəxslərin səhmləri beş faizdən azdır. |
| 14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Emitentin nizamnamə kapitalında hüquqi şəxsin səhmləri (payları) beş faizdən azdır. |
| 15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | |
| 15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan); | 2023-cü il iyulun 17-də, Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda yerləşən Teymur Əhmədov adına "AzNar" QSC-nin inzibati binasında. |
| 15.1.1. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 1. "AzNar" QSC-nin 2022-ci il üçün illik və maliyyə hesabatı təsdiq edilsin. "AzNar" QSC-nin icra orqanına qanunla müəyyən edilmiş qaydada kütləvi informasiya vasitəsi ilə "AzNar" QSC-nin illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün dərc etdirməsi, o cümlədən, müvafiq icra hakimiyyəti orqanına illik hesabatın və məlumatın verilməsi həvalə edilsin.<br>2."AzNar" QSC tərəfindən 2022-ci ilin nəticələrinə görə 16.080,00 (on altı min səksən) manat məbləğində dividend elan edilsin.<br>"AzNar" QSC-nin minoritar səhmdarlarının mülkiyyətində olan səhmlərin sayını nəzərə alaraq dividendlərin verilməsi 26 ədəd, minoritar səhmdarın mülkiyyətində olan 28.726 ədəd səhmlərin faiz nisbətinə mütənasib qaydada hər bir səhmə 0,56 manat olmaqla bölüşdürülsün.<br>Dividendlərin ödənilməsi ən geci 2023-cü il dekabrın 31-nə qədər təmin edilsin.<br>3. "AzNar" QSC-nin Direktorlar Şurası ləğv edilsin. Hazırkı ümumi yığıncağın gündəliyinə icra orqanı barədə məsələ daxil edilmədiyinə görə növbədənkənar ümumi yığıncağa qədər "AzNar" QSC-nin idarə edilməsini baş direktor Asif Kamal oğlu Əhmədov həyata keçirsin. Növbədənkənar ümimi yığıncaq kollegial icra orqanının sayı və tərkibi məsələsinə baxsın və həll etsin.<br>4. "AzNar" QSC-nin nizamnaməsi yeni (doqquzuncu) redaksiyada təsdiq edilsin.<br>"AzNar" QSC-nin qeydiyyat məlumatlarında baş vermiş dəyişikliklərin və yeni redaksiyada nizamnaməsinin dövlət qeydiyyatına alınması təmin edilsin və bu işlərin yerinə yetirilməsi, qeydiyyat orqanlarında, o cümlədən, hüquqi şəxslərin dövlət qeydiyyatı idarələrində və s. idarə və təşkilatlarda nümayəndə olmaq, ərizə yazmaq, imza etmək, lazımi sənədləri, o cümlədən təsisçi barədə məlumat əks etdirən sənədləri almaq, vermək və bu tapşırığın yerinə yetirilməsi ilə əlaqədar olan bütün hərəkətləri etmək icra orqanına həvalə edilsin.<br>5."AzNar" QSC-nin restrukturizasiyasına razılıq verilsin. "AzNar" QSC-nin əmlakı və onun törəmə müəssisələrinin əmlakı bazasında, o cümlədən, "AzNar" QSC-dən ayrılma şəklində yeni təsərrüfat subyektləri yaradılsın. "AzNar" QSC tərəfindəın təsis edilmiş törəmə cəmiyyətlərin özgəninkiləşdirilməsinə razılıq verilsin.<br>Qərarın icrası ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş bütün zəruri tədbirlər həyata keçirilsin.<br>Yaradılacaq təsərrüfat subyektlərinin əmlakının dəyərinin, nizamnamə kapitalının məbləğinin və tərkibinin, mülkiyyətçisinin, təşkilati-hüquqi formasının, və s. müəyyən edilməsi, özgəninkiləşdiriləcək törəmə cəmiyyətlərin özgəninkiləşdirilməsinin həyata keçirilməsi, ümumiyyətlə bu qərarın icrası ilə bağlı bütün zəruri hərəkətlərin yerinə yetirilməsi "AzNar" QSC-nin icra orqanına həvalə edilsin. |
| 15.2. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan); | 2023-cü il dekabrın 8-də, Göyçay şəhəri, Natəvan küçəsi, 120 ünvanında yerləşən Teymur Əhmədov adına "AzNar" QSC-nin inzibati binasında. |
| 15.2.1. Ümumi yığıncaqda qəbul edilmiş qərar | 1. "AzNar" QSC-nin baş direktoru vəzifəsinə Abbasov Bəylər Rəşid oğlu təyin edilsin.<br>"AzNar" QSC-nin qeydiyyat məlumatlarında baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması təmin edilsin və bu işlərin yerinə yetirilməsi, qeydiyyat orqanlarında, o cümlədən, hüquqi şəxslərin Dövlət Qeydiyyatı idarələrində və s. idarə və təşkilatlarda nümayəndə olmaq, ərizə yazmaq, imza etmək, lazımi sənədləri, o cümlədən təsisçi barədə məlumat əks etdirən sənədləri almaq, vermək və bu tapşırığın yerinə yetirilməsi ilə əlaqədar olan bütün hərəkətləri etmək baş direktor Abbasov Bəylər Rəşid oğluna həvalə edilsin. |
| 16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): | Teymur Əhmədov adına "AzNar" QSC-nin dövriyyədə olan qiymətli kağızların (səhm) buraxılışı Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən qeydiyyata alınmışdır. Dövlət qeydiyyat nömrəsi: AZ1001007280. Hesabat ili ərzində əlavə buraxılışlar aparılmamışdır. |
| 16.1. İnvestisiya qiymətli kağızın növü və forması; | Adi, adlı sənədsiz səhm |
| 16.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | AZ1001007280, 23 iyul 2021-ci il |
| 16.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | Ümumi miqdarı: 74.993.656<br>Nominal dəyəri: 2.00 AZN |
| 16.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri; | Məcmu nominal dəyəri: 149.987.321 manat |
| 16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); | Hesabat ili ərzində 16.080,00 (on altı min səksən) manat məbləğində dividend elan edilmişdir.<br>"AzNar" QSC-nin minoritar səhmdarlarının mülkiyyətində olan səhmlərin sayını nəzərə alaraq dividendlər 26 ədəd, minoritar səhmdarın mülkiyyətində olan 28.726 ədəd səhmlərin faiz nisbətinə mütənasib qaydada hər bir səhmə 0,56 (əlli altı) manat olmaqla bölüşdürülmüşdür. |
| 16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi; | Faizli istiqrazlar buraxılışı həyata keçirilməmişdir. |
| 16.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | Hesabat ili ərzində emitent tərəfindən investisiya qiymətli kağız emissiya edilməyib, dövriyyədə yoxdur. |
| 17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br>17.1. Əqdin məbləği;<br>17.2. Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Hesabat dövru ərzində emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər mövcud deyil. |
| 18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>18.1. Bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>18.2. Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Hesabat dövru ərzində aidiyyəti şəxslərlə bağlanılmış əqdlər mövcud deyil. |
| 19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 14 iyun 2024-cü il |
| 20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | "Xalq Qəzeti" |

Beynəlxalq həyat

# Ukrayna Kurskda möhkəmlənir...

**Ukraynanın Rusiyanın Kursk vilayətində apardığı əməliyyat barədə müxtəlif xəbərlər yayılır. Rusiya Müdafiə Nazirliyi vilayətə daxil olmuş Ukrayna hərbçilərinin neytrallaşdırılması istiqamətində əməliyyatın davam etdiyini bildirir. Ukrayna mənbələri isə Kurskda yeni ərazilər ələ keçirildiyini iddia edirlər. Qərb mətbuatı yazır ki, çox sayda rusiyalı əsir götürülüb. Belə bir iddia da var ki, Rusiya və Ukrayna əsirlərin dəyişdirilməsi barədə danışıq aparırlar.**




Kursk vilayətindən təzadlı xəbərlər gəlməkdə davam edir. Ukrayna hakimiyyəti hələ də məhdud açıqlama verməklə kifayətlənir. Ancaq müstəqil mənbələrin məlumatlarına görə, Ukrayna Silahlı Qüvvələrinin Rusiya ərazisinin dərinliklərinə doğru irəliləmə tempi azalıb. Rusiya Ukrayna ordusunu bölgədən çıxara bilmir. Bundan əlavə, bildirilir ki, Ukrayna ələ keçirdiyi ərazilərdə möhkəmlənməyə başlayıb, Rusiya isə sərhəddən 45 kilometr uzaqlıqda istehkamlar qurur. Tərəflərin bir-birinin şəhərlərinə zərbə endirmələri də davam edir. Ukrayna qoşunlarının Kursk və Voroneji atəşə tutduğu iddia olunur. Rusiyanın da Ukrayna ərazilərinə PUA və raket zərbələri endirdiyi vurğulanır.

Dünən məlum oldu ki, Rusiya komandanlığı döyüşə hazır bölmələri cəbhənin az aktiv sektorlarından çıxararaq Kursk bölgəsinə köçürməyə başlayıb. Məlumatlarda bildirilir ki, Rusiya ordusu Kurçatov və Kursk yaxınlığında müdafiə xətti qurur. CNN televiziya şirkəti kəşfiyyat məlumatlarına əsaslanaraq məlumat verib ki, Rusiya Ukraynadakı cəbhə xətlərindən ciddi qüvvələrini çıxarmayıb. CNN anonim həmsöhbətlərindən birinin sözlərini sitat gətirir: "Biz hələ əhəmiyyətli bir hərəkət görməmişik və bunun səbəbini deyə bilmirik: çünki onlar qoşunları yenicə köçürməyə başlayırlar və ya da, sadəcə, hərəkət edəcək qüvvələri yoxdur". ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi də CNN-ə deyib ki, Rusiya qoşunlarının Ukraynadan çıxarılması Moskavanın Donbas və Zaporojyedəki hərbi əməliyyatlardan imtina etməsi demək deyil.

ABŞ kəşfiyyatının məlumatına görə, Rusiya Ukraynadan olan bölmələrlə yanaşı, Leninqrad Hərbi Dairəsindən və Kalininqraddan da Kursk vilayətinə şəxsi heyət göndərib. CNN-nin müəllifləri də digər müşahidəçilərin ardınca qeyd edirlər ki, Ukraynanın Kursk vilayətində uzun müddətə qalacağı ehtimalı azdır və buna görə də bu əməliyyatın müharibənin ümumi gedişatına necə təsir edəcəyini söyləmək hələ tezdir. Ancaq bir sıra hərbi mütəxəssisin fikrincə, hər iki tərəf bu reallıqdan çıxış edir ki, Ukraynanın Rusiyadakı plasdarmı uzunmüddətli olacaq və oradan Kursk, Lipetsk və Voronej vilayətlərinin hərbi və strateji əhəmiyyətli infrastrukturuna zərbələr endiriləcək.

Bundan başqa, ABŞ televiziya kanalının bir çox amerikalı müsahiblərinin sözlərinə görə, Vaşinqton Ukraynaya Kursk bölgəsində 300 kilometr hədəfi vuran ATACMS raketlərindən istifadə etməyə icazə vermir. Pentaqon eskalasiyadan qorxmur, sadəcə, bu raketlər ABŞ-də də azdır və Amerika hərbçiləri qənaət naminə yalnız Krımdakı hədəflərin vurulmasını daha məqsədəuyğun hesab edirlər. Eyni zamanda, CNN-nin həmsöhbətlərindən biri deyib ki, Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətində keçirdiyi əməliyyat "hərbi baxımdan təsiredicidir", lakin Ukrayna ora kifayət qədər təcrübəli qoşun göndərib və onları itirmək olmaz.



Hazırda fəal döyüşlərin Kurskda yox, Korenevdən Kauçuka qədər olan ərazidə baş verdiyi iddia olunur. Ukraynanın növbəti güclü hücum yürüşünün məhz bu zonada olacağı güman edilir. Bəzi mənbələr vilayətdə hərbi təşəbbüsün hələ də Ukrayna Silahlı Qüvvələrinin tərəfində olduğunu bildirirlər. Rusiya hərbçiləri də bunu başa düşürlər – Lqov şəhəri yaxınlığında aktiv şəkildə səngərlər qazırlar. Yeni istehkamların yüksək keyfiyyətli fotoşəkillərini internet resurslarda tapmaq mümkündür.

Rusiyalı müharibə bloqerlər də Ukraynanın tutduğu ərazilərdən tezliklə çıxarılacağına əmin deyillər. Ukraynanın reinteqrasiya naziri İrina Vereşçukun son bəyanatı da Kiyevin həmin ərazilərdən tezliklə çıxmayacağını təsdiqləyir. Xanım Vereşçuk bildirib ki, Ukrayna müdafiə qüvvələri Rusiya ərazisində təhlükəsizlik zonası yaradıblar.

*SE LAY*
*XQ*

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

öz ərazisində dezinfeksiya, dezinseksiya, deratizasiya və sürünənlərlə mübarizə xidmətlərinin satın alması üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 27 avqust 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

**"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı – Bakı şəhəri, AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, "ASG Business Aviation" MMC-nin inzibatı binası, 4-cü mərtəbə.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 175 (30579) 17 avqust 2024-cü il, şənbə



# Minskdə "Göz yaşları" adası



**Müharibələrin hamısı Azərbaycan Ordusunun 2020-ci ilin payızında başlayıb elə həmin payızda da uğurla yekunlaşdırdığı İkinci Qarabağ müharibəsi kimi ədalətli olmur. Siyasətçilərin hikkələri, dövlət başçılarının əsassız iddiaları nəticəsində başlanan işğalçılıq, qarətçilik, hökmranlıq etmək və ərazi mənimsəmək məqsədli müharibələrin fəsadları çox olsa da, ən böyük əzabını əsgər anaları çəkirlər.**

Mən bunu əsgər analarının Minskdə yaradılmış "Göz yaşları" süni adasındakı xatirə kompleksinə gətirdikləri əşyaların tarixinə və coğrafiyasına baxanda daha dərindən hiss elədim. Təxminən, on illik Əfqanıstan müharibəsində həlak olmuş bütün belaruslu əsgərlərin anaları və həmin döyüşlərdə iştirak etmiş belarus əsgər və zabitlər hər il bu adaya gəlir, hər il xatirə kompleksi yeni eksponatlarla zənginləşir. Şəxsən mən həmin adada gəzəndə, xüsusilə, "göz yaşlarını gizlətmək üçün əllərilə üzünü örtmüş" mələyin (ananın) əzabını görəndə, sadəcə, göz yaşlarımı saxlaya bilməmişdim.

Həmin adaya getmək üçün taksi sifariş etmək məqsədilə otel əməkdaşına müraciət edəndə ünvanı hələ Bakıda olarkən eşitdiyim şəkildə dedim: "Остров слёз" ("Göz yaşları adası"). Taksi sifariş edən xanım isə sürücüyə həmin ünvanı belə söylədi: "Остров Мужества и Скорби" ("Mərdlik və kədər adası"). Onda bildim ki, şəhər sakinləri bu adanı iki adla çağırırlar. İnsafən, hər ikisi uğurlu addır.

Bəli, Köhnə Minskin Troitski məkanı deyilən ərazisində – Svisloç çayında yaradılmış bu süni ada ilk baxışdan gözəl görünsə də, daxilən kədər və iztirabla doludur. Bələdçi dedi ki, bu layihə əsgər analarının Əfqanıstanda həlak olmuş soydaşlarımıza (həmin döyüşlərdə slavyan respublikalarından olan hərbçilər daha çox öldürülmüşdülər) abidə ucaldılması təşəbbüsünün gündəliyə gətirilməsindən sonra yaradılmışdı: "Fikrimcə, bu variant məsələnin ən gözəl həlli olmuşdu".

1979–1989-cu illərdə oğlunu yad ölkəyə, lüzumsuz müharibəyə göndərib cansız cəsədini qəbul etmiş analar indi hər il buraya gəlirlər. Ən ağır məqam odur ki, bütün ziyarətçilər bu süni adaya qozbel körpü ilə keçirlər. Nə üçün birbaşa, adi körpü ilə yox, məhz qozbel körpü ilə? Bəlkə də müəlliflər kədərin əsgər analarına təsirini ifadə etmək istəyiblər. Hər halda, mən o suala orada cavab ala bilmədim.

Adadakı xatirə lövhələrində Əfqanıstanda həlak olmuş bütün belaruslu hərbçilərin ad-soyadı yazılıb. Həmin lövhələrin ortasında basdırılmış kapsulda həlak olmuş hərbçilərin analarının gələcək nəsillərə müraciəti və qurbanların siyahısı var. Xatirə lövhələrinin yaxınlığında isə əlləri ilə üzünü örtərək həlak olmuş bütün oğullar üçün ağlayan mələyin (ангел) abidəsi ucalır. Adada, həmçinin Əfqanıstanın döyüş getmiş şəhərlərinin hamısının adı yazılan iri daş göstəricilər də yerləşdirilib.

Fikrimcə, həmin ada və abidə təkcə həlak olanların xatirəsinin əbədiləşdirilməsinə xidmət eləmir, həm də bəşər övladının müharibəyə etirazının olduqca dəyərli nümunəsidir.

*İttifaq MİRZƏBƏYLİ*

## "Zirə"nin qapıçısı 5 penaltidən 4-ünü məharətlə dəf etdi



**Məlum olduğu kimi, "Zirə" tarixində ilk dəfə pley-off mərhələsinə yüksəlib. Matçın qəhrəmanı isə qapıçı Tiaqo Silva olub. O, penaltilər seriyasında 5 topdan 4-nü dəf edib. Qapıçı deyib: "Təhlillərə əsasən, ilk 3 penaltini hara vuracaqlarını bilirdim. Amma son ikisi öz hissiyyatımla bağlıdır".**

Tiaqo Silva pley-offda qarşılaşacaqları Kiprin "Omoniya" kollektivi haqqında da danışıb: "Biz heç kimdən çəkinmirik. Rəqibin kimliyindən asılı olmayaraq, bu kollektiv və komanda sonadək mübarizə aparacaq. İnanırıq ki, bunun nəticəsində də istədiyimizə nail olacağıq".

## "Barselona"nın 55-60 milyon avroluq transferi



**"Barselona" heyətini gücləndirmək istəyir. Bu məqsədlə aparıcı futbolçularla maraqlanır. Onlardan biri də "Liverpul"un idman şərəfini qoruyan kolumbiyalı hücumçu Luis Diazdır. Hazırda bu istiqamətdə danışıqlar gedir. "Mundo Deportivo" nəşrinin məlumatına görə, "Barselona" Diaz üçün 55-60 milyon avro təklif edir. Eyni zamanda, kataloniyalılar "Liverpul"un 27 yaşlı futbolçusu üçün daha çox – 62 milyon avro istəyəcəyinə inanırlar.**

Bundan əvvəl məlum olmuşdu ki, kataloniyalılar "Atletik"dən Niko Uilyamsla maraqlanırlar. Sonradan "Barselona" müəyyən səbəblərdən ona alternativ axtarmağa başlayıb. Mənbənin sözlərinə görə, kolumbiyalı Niko Uilyamsın əvəzinə əsas seçimdir.

## Gimnastlarımız 3 qızıl qazanıblar



**Azərbaycan bədii gimnastları Almatı şəhərində keçirilmiş "Alma Cup" beynəlxalq turnirində 3 qızıl medal qazanıblar. Yarışın reqlamentinə əsasən, çoxnövçülük proqramında çıxışlar iki alət üzrə qiymətləndirilib. Lent və gürzlər üzrə yerinə yetirilən çoxnövçülük proqramında gənclər arasında Fidan Qurbanlı (49.500 xal) qızıl mükafat alıb.**

Yeniyetmələrdən Nur Sadıqova (halqa və top) və Alina Kolesnikova (gürzlər və lent) çoxnövçülükdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Bundan başqa, zəriflik nümayişində yeniyetmələr arasında N.Sadıqova "Miss Grace" ("Zəriflik ilahəsi") nominasiyasının qalibi olub.

*Hazırladı:*
*PÜNHAN*
*XQ*

## "Südyolu" "Andromeda" ilə birləşəcəkmi?

**Astronomiyada belə bir ehtimal irəli sürülür ki, "Südyolu" qalaktikası, təxminən, beş milyard il sonra qonşu "Andromeda" qalaktikası ilə birləşəcək. Bu 2 böyük spiral qalaktikanın birləşməsi nəticəsində yeni elliptik qalaktika meydana gələcək. Bununla belə, Helsinki Universitetinin astrofizikləri belə qənaətə gəliblər ki, bu 2 qalaktikanın yaxın 10 milyard ildə birləşmə ehtimalı 50 faizdir.**



Alimlər hesablamalarında "Südyolu" və "Andromeda" qalaktikalarının tam təcrid olunmadığını, onlara yaxınlıqdakı digər qalaktikaların, xüsusən də 2,7 milyon işıq ili uzaqlıqda yerləşən və 40 milyard ulduzun olduğu güman edilən "M33" qalaktikasının cazibə qüvvələrinin təsirinə məruz qaldığını nəzərə alıblar. Müqayisə üçün qeyd edək ki, "Südyolu"nda təqribən 100 milyard ulduz, "Andromeda" qalaktikasında isə təxminən bir trilyon ulduz var.

"Südyolu" və "Andromeda" arasındakı qarşılıqlı təsirlərin dinamikasına 163 min işıq ili məsafəsində yerləşən bizim qalaktikamızın ən yaxın qonşusu Böyük Magellan Buludunun cazibə qüvvəsi də təsir göstərir. Hesablamalar göstərir ki, "M33" və Böyük Magellan Buludunun cazibə qüvvəsini nəzərə alaraq, iki nəhəng qalaktikanın mürəkkəb "rəqsi" onların birləşməsilə nəticələnməyə bilər. M33-ün cazibə qüvvəsi birləşmə ehtimalını artırırsa, o zaman orbiti "Südyolu" və "Andromeda"nın orbitinə perpendikulyar olan Böyük Magellan Buludunun cazibə qüvvəsi, əksinə, birləşmə şansını azaldır.

*S.ELAY*
*XQ*



## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 17-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz havanın qısamüddətli tutulacağı gözlənilir.**

Cənub-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət gecə 60-70 , gündüz 40-50 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 25-30°, dağlarda gecə 10-15°, gündüz 15-19° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

"Xalq qəzeti"nin kollektivi keçmiş iş yoldaşları

**RƏFİQƏ ƏSGƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3645
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00